Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 153 (8176) ÇƏRŞƏNBƏ, 17 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İslahatlar yeni iqtisadi artımlarla əlamətdardır

## 2019-cu ilin birinci yarısında istehsal olunan ÜDM-in həcmi bunu təsdiq edir

Azərbaycan iqtisadiyyatında 2016-cı ildən başlanan yeni islahatlar, strateji yol xəritələrində qarşıya qoyulan məqsədlərin yerinə yetirilməsi müsbət nəticələrini göstərməkdə davam edir. Artıq üç ildir ki, iqtisadiyyatımız yeni artım tendensiyaları nümayiş etdirir. Həm də görünən odur ki, yeni mərhələdə artım qeyri-neft sektorunun hesabınadır.

### 37 milyard 825,2 milyon manatlıq məhsul

Bir neçə il əvvəl qlobal və regional səviyyədə gedən mürəkkəb və ziddiyyətli proseslər dünya iqtisadiyyatına sıx inteqrasiya olunmuş Azərbaycana da müəyyən dərəcədə öz təsirini göstərmişdi. Xüsusən 2014-cü ilin sonlarından etibarən neftin qiymətinin azalması iqtisadi riskləri artırmışdı. Neftin qiymətlərinin 3 dəfəyədək aşağı düşməsi Azərbaycanın valyuta ehtiyatlarının da azalmasına gətirib çıxarmışdı.

Lakin Azərbaycan bu sınaqdan üzüağ və uğurla çıxdı. Prezident İlham Əliyevin fərman və sərəncamları ilə 2016-cı ilin əvvəllərindən dərhal yeni iqtisadi islahatlara start verildi. İlk növbədə qeyri-neft sektoru istehsalının və ixracının stimullaşdırılması istiqamətində zəruri tədbirlər həyata keçirildi. Bu məqsədlə iqtisadi fəaliyyət sahəsində gömrük və vergi güzəştləri tətbiq olundu. Vergi və gömrük sahəsindəki yeniliklər, lisenziyaların verilməsinin və biznesə başlama prosedurlarının sadələşdirilməsi, yoxlamaların aradan qaldırılması, yerli istehsalın və onun ixracının dövlət tərəfindən stimullaşdırılması, "Made in Azerbaijan" brendinin dünyada tanıdılması qeyri-neft sektorunun inkişafına səbəb oldu. Təbii ki, yeni iqtisadi islahatların bir qismi maliyyə sektorunu əhatə etdi. Yeni çağırışlardan irəli gələrək bankların restrukturizasiyası və kapitallaşması, aktivlərin sağlamlaşdırılması, sığorta bazarının inkişafı, maliyyə inklüzivliyinin gücləndirilməsi istiqamətində tədbirləri əks etdirən strateji hədəflər müəyyən edildi.

Təsadüfi deyil ki, həyata keçirilmiş islahatlar və tədbirlər fonunda Azərbaycan Dünya Bankının "Doing Business 2019" hesabatında 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, MDB ölkələri arasında lider, dünyanın ən islahatçı 10 ölkəsindən biri və ən çox islahat aparan ölkə hesab olunub.

İslahatların nəticəsi olaraq hələ 2017-ci ildən iqtisadiyyatda yeni artım meyilləri müşahidə olunmağa başladı. Əvvəlki dövrlərin davamı olaraq 2019-cu ilin birinci yarısının da iqtisadi nəticələri ürəkaçandır. Belə ki, bu ilin birinci yarısında ölkənin ümumi daxili məhsulu əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,4 faiz artaraq 37 milyard 825,2 milyon manata çatıb. Əhalinin hər nəfərinə düşən ÜDM isə 3 min 828,1 manata bərabər olub. ÜDM istehsalının 44,6 faizi sənayenin, 9,9 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 6,2 faizi nəqliyyat və anbar təsərrüfatı sahələrinin, 5,9 faizi tikintinin, 5,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,7 faizi informasiya və rabitə sahələrinin, 14,5 faizi digər sahələrin payına düşüb.

İqtisadiyyatın neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 1,3 faiz, qeyri neft-qaz sektorunda isə 3,2 faiz artıb.

### 23,6 milyard manatlıq sənaye məhsulu

Yuxarıda qeyd olunduğu kimi, ÜDM istehsalının 44,6 faizi sənayenin payına düşüb. Ümumiyyətlə, sənayenin inkişafı Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi istiqamətində qarşıya qoyulan əsas vəzifələrdən biridir. Təsadüfi deyil ki, dövlət başçısının müəyyən etdiyi inkişaf kursundan irəli gələrək ölkədə sənaye potensialının daha da gücləndirilməsi, istehsalda rəqabət qabiliyyətinin artırılması, son məhsuladək texnoloji zəncirin qurulması istiqamətində mühüm işlər görülüb. Xüsusən ölkənin ayrı-ayrı bölgələrində sənaye parklarının və məhəllələrinin yaradılması Azərbaycan dövlətinin qarşıya qoyulan məqsədlərə doğru inamla addımladığını göstərir. Əgər ölkəmizdə sənaye yüksəlişinin birinci mərhələsi karbohidrogen resurslarına əsaslanırdısa, indiki mərhələdə inkişafın iqtisadi səmərəlilik üzərində qurulması və qeyri-neft sənayesinin yüksəlişi daha çox diqqət mərkəzindədir.

ÜDM-də baş verən artımın təxminən yarıya qədərinin də sənayenin payına düşməsi bu sahədə əldə olunan nailiyyətlərdən xəbər verir. Ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye məhsulları istehsalının inkişafı üçün münbit şərait yaratmaq, bu sahədə sahibkarlığı dəstəkləmək, əhalinin istehsal sahəsində məşğulluğunu artırmaq məqsədilə sənaye parklarının yaradılması ilə bağlı göstərilən təşəbbüslər də bu gün real nəticələrlə müşahidə olunmaqdadır.

Ardı 3-cü səh.

## Əli HƏSƏNOV: "Əminik ki, dost Azərbaycan və gürcü xalqları arasında ədavət toxumları səpmək istəyənlərin cəhdləri heç bir nəticə verməyəcək"

"Keşikçi qala" sərhəd məntəqəsində baş vermiş məlum hadisə ilə bağlı Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov AZƏRTAC-a açıqlama verib. Açıqlamada deyilir:

- İyulun 14-də "Keşikçi qala" sərhəd məntəqəsində bir qrup Gürcüstan vətəndaşı tərəfindən Azərbaycanın sərhəd növbətçi dəstəsinə qarşı insident törədilib. Dövlət Sərhəd Xidməti tərəfindən həyata keçirilmiş təxirəsalınmaz tədbirlər nəticəsində insident aradan qaldırılıb və ərazidə təhlükəsizlik təmin edilib.

Qeyd etməliyik ki, ümumiyyətlə, son aylar ərzində Azərbaycan və Gürcüstan arasında strateji münasibətlərin ruhuna tamamilə zidd olan bu tipli təxribatların artan xətt üzrə inkişafı müəyyən suallar doğurmaya bilməz. Artıq hər iki tərəfin ekspertləri səviyyəsində müzakirələrdə belə fikirlər səslənir ki, görünür, iki qonşu dövlət arasında formalaşmış dostluq, strateji tərəfdaşlıq münasibətləri kimlərisə ciddi narahat edir və bu ölkələri, onların xalqlarını qarşı-qarşıya qoymağa çalışan qüvvələr var. Müzakirələrdə bu qüvvələrin kimliyi barədə də müəyyən fikirlər səsləndirilir.

Şübhəsiz, Azərbaycan sərhədçilərinə qarşı törədilən son təxribat dövlətlər arasındakı münasibətlərə birbaşa zərbə vurmaq məqsədi daşıyır və ona görə də hər iki ölkənin müvafiq qurumları ciddi araşdırmalar aparmalı, bu təxribatı törədən qüvvələri müəyyən edərək onlara qarşı təsirli tədbirlər görməli idilər. Artıq Gürcüstanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət olunub, ondan məsələ ilə bağlı müvafiq izahat istənilib. Gürcüstan Xarici İşlər Nazirliyi də hadisəni pisləyən açıqlama ilə çıxış edib və bu istiqamətdə ciddi araşdırmalar apararaq günahkarların məsuliyyətə cəlb ediləcəyinə söz verib.

Əlbəttə, biz əminik ki, Azərbaycan və gürcü xalqları bundan sonra da belə məqamlarda təmkinlə, müdrikcəsinə davranaraq emosiyalara meydan verməyəcək, müvafiq rəsmi instansiyalar isə prinsipial şəkildə bu hadisələrin törədilməsində, iki dost ölkə arasında münasibətlərin gərginləşdirilməsində maraqlı olan qüvvələri, şəxsləri aşkarlayaraq cəzalandırılmasını təmin edəcəklər. Qaranlıq dairələrin dövlətlərarası münasibətlər müstəvisində söz sahibinə çevrilməsinə imkan vermək olmaz və belə cəhdlərə birdəfəlik son qoyulmalıdır.

Bununla yanaşı, təəssüflə qeyd edilməlidir ki, baş verən hadisələrdə böyük güclərin geosiyasi maraqları və onların daxili siyasi qüvvələrlə manipulyasiya cəhdləri özünü aydın büruzə verir. Həmçinin istər Gürcüstanda, istərsə də Azərbaycanda əsasən xarici təsir altında olan bəzi maraqlı siyasi qruplar baş vermiş insidentdən yararlanmağa və hakimiyyət uğrunda mübarizədə belə həssas məqamlardan istifadə etməyə çalışırlar. Görünən odur ki, bəhs olunan qruplar mövcud vəziyyətdən bəhrələnmək istəyən üçüncü tərəflərin tarixi-dini stereotiplərlə manipulyasiyası üçün açıqdırlar və bəzən də bilərəkdən xarici təsir üçün könüllü alət rolunu oynayırlar. Biz əvvəllər də ölkəmizin strateji maraqlarına qarşı "beşinci kolon"un imkanlarından istifadə cəhdlərini ifşa etmişik və buna yol verməmək zərurəti haqqında danışanda məhz belə halları nəzərdə tuturuq.

Qafqazda yeni münaqişə ocağı yaratmaq istəyənlərin diplomatik münasibətləri pozmaq, silaha sarılmaq kimi təxribatçı bəyanatları artıq xeyli vaxtdır ki, eşidilməkdədir. Məqsəd, əlbəttə ki, Cənubi Qafqazda yeni münaqişə ocağı alovlandırmaq yolu ilə öz ambisiyalarını Azərbaycana və Gürcüstana qəbul etdirməkdən ibarətdir. Bunun üçün onlar bir tərəfdən Gürcüstanda daxili siyasi çəkişmələri qızışdırmağa, o biri tərəfdən Azərbaycanda daxili radikal qrupların bu ölkədəki proseslərlə bağlı təxribatçı çağırışlarını təşkil etməklə iki dost ölkə arasında milli-vətəndaş ehtiraslarını qızışdırmaq və bu fonda qarşıdurma yaratmağa can atırlar.

Ardı 2-ci səh.

## Azərbaycan ilk ölkə kimi ikinci dəfə Könüllü Milli Hesabat təqdim edib

İyulun 15-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Nyu Yorkdakı Baş Qərargahında təşkil olunmuş Dayanıqlı İnkişafa dair Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycan Respublikasının ikinci Könüllü Milli Hesabatı uğurla təqdim olunub və iştirakçı ölkələrin, BMT və digər beynəlxalq təşkilatların nümayəndələri tərəfindən müsbət qiymətləndirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov hesabat barədə təqdimatla çıxış edərək son dövrlərdə ölkəmizdə inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi, dayanıqlı iqtisadi artımın, tam və səmərəli məşğulluğun, layiqli işlə təmin olunmanın dəstəklənməsi, "heç kimin geridə qalmaması" prinsiplərinə əsaslanaraq əhalinin həssas təbəqəsinin sosial vəziyyətinin yaxşılaşdırılması, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə üzrə fəaliyyətin tənzimlənməsi və məhkəmə-hüquq sistemində aparılan islahatların dərinləşməsi barədə ətraflı məlumat verib. Eyni zamanda nümayəndə heyətinin rəhbəri Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində əsas çətinliklərdən bəhs edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında beynəlxalq ictimaiyyətin nümayəndələrini bir daha məlumatlandırıb, münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu, 1 milyondan çox soydaşımızın yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını diqqətə çatdırıb.

Ardı 2-ci səh.



## "Şahdəniz-2" "Ən yaxşı mühəndislik layihəsi" mükafatına layiq görülüb

"Şahdəniz-2" "Royal Academy of Engineering" ("Kral Mühəndislik Akademiyası") tərəfindən "Ən yaxşı mühəndislik layihəsi" mükafatına layiq görülüb.

Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson mükafata layiq görülən "Şahdəniz-2" layihəsində sənayenin ən müasir texnologiyalarından istifadə edildiyini bildirib.

"The Royal Academy of Engineers"in mükafat komitəsinin sədri Raffaella Ocone isə qeyd edib ki, "Şahdəniz-2" layihəsi mühəndislik həllərinin öhdəsindən layiqincə gəlinməsinin əyani sübutudur.

BP-nin mühəndislik meneceri Mark Tatum 2018-ci ildə layihə üzrə Türkiyəyə ilk təbii qaz həcmlərinin təhlükəsiz və etibarlı tədarükünü "Şahdəniz-2"nin mühüm uğuru adlandırıb.

Xatırladaq ki, Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinə BP (28,8 faiz iştirak payı ilə) operatorluq edir. Digər tərəfdaşlar isə TPAO (19 faiz), AzŞD (10 faiz), "Cənub Qaz Dəhlizi Apstrim" (6,7 faiz), PETRONAS (15,5 faiz), "LUKoyl" (10 faiz), NİKO (10 faiz) şirkətləridir.

"Şahdəniz" nəhəng bir yataqdır, təxminən 860 kvadratkilometr sahəni əhatə edir. 1999-cu ildə kəşf edilmiş bu zəngin karbohidrogen mənbəyi 1,2 trilyon kubmetr qaz və 240 milyon tondan çox kondensat ehtiyatlarına malikdir. Yataqdan ilk hasilat 2006-cı ildə əldə olunub. Həmin vaxtdan Azərbaycana və Gürcüstana, az sonra isə Türkiyəyə qaz nəqlinə başlanıb.

2018-ci ildə "Şahdəniz" yatağından Azərbaycan (SOCAR-a), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a) bazarlarına və çoxsaylı obyektlər üçün BTC şirkətinə qaz çatdırılması davam edib.

Ardı 4-cü səh.

### XV Avropa Gənclər Yay Olimpiya Festivalı

## Avropa yenidən Bakıda toplanır

İyulun 21-də Bakıda növbəti böyük idman tədbirinə start veriləcək. Bu dəfə paytaxtımızın arenalarında Avropanı təmsil edən atletlər iyulun 27-nə kimi mübarizə aparacaqlar. Azərbaycan XV Avropa Gənclər Yay Olimpiya Festivalına evsahibliyi edəcək. Ümumiyyətlə, Avropanın idman paytaxtı Bakı bu il bir-birindən maraqlı mötəbər idman yarışlarını qəbul edib. Belə ki, paytaxtımız aprelin 26-28-də "Formula-1" Azərbaycan Qran-prisinə, mayın 29-da UEFA Avropa Liqasının final qarşılaşmasına evsahibliyi etməklə tarixini daha möhtəşəm nailiyyətlərlə zənginləşdirib. Həmin yarışlar ərəfəsində milyonlarla insanın qəlbi Bakıda döyünüb. Bu mühüm hadisələr bir daha nümayiş etdirir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutmaqdadır.

Ardı 6-cı səh.



# Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında siyasi əlaqələr yüksək səviyyədədir



Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov iyulun 16-da Səudiyyə Ərəbistanı Krallığının Ədliyyə naziri Valid bin Mohammad Al-Samaaninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətlərindən danışan Baş nazir Novruz Məmmədov ölkələrimiz arasında bir çox istiqamətlərdə, o cümlədən ədliyyə sahəsində yaxşı əlaqələrin olduğunu bildirərək deyib: "Ölkələrimiz və xalqlarımız arasındakı dostluq və tərəfdaşlıq münasibətləri həyata keçirilən yüksəksəviyyəli qarşılıqlı səfərlər, aparılan danışıqlar sayəsində daha da möhkəmlənib. Əminəm ki, sizin səfəriniz də ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsinə öz müsbət töhfəsini verəcək".

İki ölkə arasındakı siyasi əlaqələrin yüksək səviyyədə olduğunu söyləyən Novruz Məmmədov cari ilin iyununda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin dövlət və hökumət başçılarının XIV Zirvə toplantısında iştirak etmək üçün Səudiyyə Ərəbistanına etdiyi səfəri məmnunluqla xatırladıb. Baş nazir iqtisadiyyatın müxtəlif istiqamətlərində, o cümlədən turizm, kənd təsərrüfatı sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu diqqətə çatdırıb, qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Baş nazir Novruz Məmmədov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın ədalətli mövqeyinə verdiyi dəstəyə görə Səudiyyə Ərəbistanına minnətdarlığını ifadə edib.

Ədliyyə naziri Valid bin Mohammad Al-Samaani Səudiyyə Ərəbistanının bütün sahələrdə Azərbaycan ilə əməkdaşlığa önəm verdiyini diqqətə çatdırıb. Cari ilin əvvəlində iki ölkənin Ədliyyə nazirlikləri arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalandığını xatırladan nazir Valid bin Mohammad Al-Samaani iyulun 15-də isə Əməkdaşlıq Proqramının imzalandığını söyləyib. Qonaq Azərbaycanın ədliyyə sahəsində tətbiq etdiyi informasiya resursları, o cümlədən "Elektron məhkəmə" informasiya sistemi ilə tanış olduqlarını bildirərək deyib: "Ölkələrimiz arasında məhkəmə-hüquq sistemi və qanunvericilik sahələrində əməkdaşlıq üçün yaxşı imkanlar var. Səfərimizin məqsədi də müxtəlif sahələrdə əlaqələrin genişlənməsinə töhfə verməkdir".

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlərə dair geniş fikir mübadiləsi aparılıb.

# Əli HƏSƏNOV: "Əminik ki, dost Azərbaycan və gürcü xalqları arasında ədavət toxumları səpmək istəyənlərin cəhdləri heç bir nəticə verməyəcək"

*Əvvəli 1-ci səh.*



Lakin onlara 2015-ci ildə Türkiyə ilə Rusiya arasında az qala qarşıdurmaya səbəb olmuş təyyarə insidentini xatırlatmaqla böyük diplomatik qalmaqaldan tərəflərin necə müdrikcəsinə çıxması nümunəsini xatırlatmaq istərdik. Həmin dövrdə də hər iki tərəfdə münasibətləri hərb meydanında ayırd etməyə çağırışlar olunurdu. Lakin Moskva və Ankara təxribata getmədilər, məsələnin kökünü araşdırdılar, günahkarlar tapıldı və ciddi fəsadlar vəd edən insident aradan qaldırıldı.

Buna görə də Azərbaycan və Gürcüstan vətəndaşları qızışdırıcı çağırışlara uymamalıdırlar. İndi emosional çağırışlar, impulsiv davranış deyil, təmkin və müdriklik nümayiş etdirməyin zamanıdır.

Azərbaycan sərhədlərinin demarkasiya və delimitasiyası ilə bağlı müzakirələr yalnız Gürcüstanla aparılmır. Tarixə nəzər salsaq görərik ki, bu məsələdə insident yaşanan yeganə sərhəd xətti də son hadisənin baş verdiyi "Şəmkir" sərhəd dəstəsinin ərazisi olmayıb. Amma Azərbaycan ictimaiyyəti onu da çox gözəl bilir ki, mübahisələr, insidentlər zamanı bizim diplomatlarımız və sərhədçilərimiz bəzən ağır, yorucu görünən müzakirələrdə heç vaxt təmkinlərini itirməyiblər, milli maraqlarımızı əzmlə, peşəkarlıqla qoruyublar, Azərbaycanın haqlı mövqeyindən zərrə qədər də geri addım atmayıblar və bundan sonra da belə olacaq.

Müdrik gürcü və Azərbaycan xalqları arasında dostluq əlaqələrinin çox dərin tarixi kökləri var, indiyə qədər bu xalqları qarşı-qarşıya qoymaq, ədavətə sövq etmək kimsəyə müyəssər olmayıb. Münasibətlərimizin tarixi təcrübəsi göstərir ki, bizim talelərimiz də xeyli dərəcədə oxşar və bir-birinə bağlıdır. Bu tarixi təcrübə bizi qarşı duran tərəflər deyil, tərəfdaş olmağı, müstəqilliyimizi birlikdə qorumağı, sivil dünyaya birlikdə inteqrasiya etməyi öyrədir. Biz iqtisadi sahədə uğurlu əməkdaşlıq nümunəsini ortaya qoymaqla, hər iki ölkəyə böyük dividendlər gətirən mühüm enerji və nəqliyyat layihələrini reallaşdırmaqla fəal tərəfdaşlığın ən bariz nümunəsini bütün dünyaya nümayiş etdirmişik. Ölkələrimiz üçün taleyüklü məqamlarda dost dəstəyinin, bu dostluğa sadiqliyin hansı anlama gəldiyini əməli işimizlə göstərmişik. Əminik ki, bundan sonra da dost Azərbaycan və gürcü xalqları arasında ədavət toxumları səpmək istəyənlərin cəhdləri heç bir nəticə verməyəcək. Radikal mövqe tutaraq xalqları, dövlətləri təxribata çəkmək, bir-birinə qarşı qoymaq meyilləri müdriklik, əsrlərin sınağından çıxmış qarşılıqlı etimad mühiti qarşısında məğlub olacaq və regionumuzun yeni reallıqlarını unudaraq orta əsrlərin xiffətini çəkənlərin ekstremist təşəbbüsləri iflasa uğrayacaq.

# Azərbaycan ilk ölkə kimi ikinci dəfə Könüllü Milli Hesabat təqdim edib

*Əvvəli 1-ci səh.*



BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi 822, 853, 874 və 884 saylı məlum qətnamələrin indiyədək yerinə yetirilmədiyi bir daha forum iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd edək ki, BMT-nin müəyyən etdiyi "İnsanların hüquq və imkanlarının genişləndirilməsi və onların inklüzivliyinin və bərabərliyinin təmin edilməsi" tematik mövzusuna uyğun 4-cü "Keyfiyyətli təhsil", 8-ci "Layiqli əmək və iqtisadi artım", 10-cu "Bərabərsizliyin azaldılması", 13-cü "İqlim dəyişikliyinə qarşı mübarizə", 16-cı "Sülh, ədalət və səmərəli institutlar" və hər il nəzərdən keçirilən 17-ci "Məqsədlər üçün tərəfdaşlıq" məqsədləri üzrə təqdim olunan ikinci milli hesabat İqtisadiyyat Nazirliyi tərəfindən yerli ekspert və Dayanıqlı İnkişaf Məqsədləri üzrə yaradılmış işçi qruplarının iştirakı ilə aidiyyəti dövlət qurumlarının məlumatları nəzərə alınmaqla hazırlanıb.

Səfər çərçivəsində Azərbaycan Respublikasının BMT yanında daimi nümayəndəliyinin rəhbəri Yaşar Əliyev, Ədliyyə nazirinin müavini Toğrul Musayev, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Mətin Kərimli, Nazirlər Kabinetinin şöbə müdiri Şahin Sadıqov, İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibi Hüseyn Hüseynovun təmsil olunduğu nümayəndə heyəti ilə BMT-nin bir sıra yüksəksəviyyəli nümayəndələri və digər üzv dövlətlərinin nümayəndə heyətləri arasında ikitərəfli görüşlərin keçirilməsi nəzərdə tutulub.

Onu da qeyd edək ki, ölkəmiz BMT-nin üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində 2016-2030-cu illər üçün təsdiqlənmiş 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə qoşulmuş, bu məqsədlərdən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Hazırda Azərbaycan regionda və MDB məkanında ilk, ümumiyyətlə isə dünyada ikinci hesabatı təqdim edən 14 ölkədən biridir. Hesabatla BMT-nin rəsmi internet səhifəsindən *(www.sustainabledevelopment.un.org)* tanış olmaq olar.

# Diplomatik xidmət orqanlarının 100 illiyinə həsr olunmuş VI müşavirə çərçivəsində seminar müzakirələr keçirilib

İyulun 15-16-da Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illik yubileyinə həsr olunmuş VI müşavirə çərçivəsində regional və tematik mövzular üzrə seminar müzakirələr keçirilib. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov, Xarici İşlər nazirinin müavinləri Xələf Xələfov, Ramiz Həsənov, Mahmud Məmməd-Quliyev, Mədəniyyət nazirinin müavini Sevda Məmmədəliyeva, ölkəmizin xaricdə akkreditə olunmuş diplomatik nümayəndəliklərimizin rəhbərləri, eləcə də XİN-in digər rəsmiləri iştirak ediblər.

Müzakirələr zamanı xarici siyasətimizin müxtəlif aspektləri və üzləşdiyi çağırışlar barədə geniş fikir mübadiləsi aparılıb. Xarici siyasət sahəsində işin səmərəliliyinin artırılması və əlaqələndirmənin gücləndirilməsi məqsədilə tövsiyələr hazırlanıb.

Eyni zamanda, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev mərkəzin fəaliyyət istiqamətləri haqqında məlumat verib.

Sonda bu tədbirin keçirilməsinə görə iştirakçılar tərəfindən Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinə və onun rəhbərinə təşəkkür ifadə edilib.

# Ali Baş Komandanın tapşırığına əsasən hərbi hissələr yoxlanılır



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan Ordusunun hərbi hissələrinin döyüş qabiliyyəti, silah və hərbi texnikasının vəziyyəti, eləcə də onların döyüşə hazırolma səviyyəsi yoxlanılır.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 16-da hərbi hissələrdən birində olan nazirliyin rəhbərliyi burada ucaldılan Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyub, xatirəsinə hörmət və ehtiramlarını ifadə ediblər.

Sonra Müdafiə naziri, general-polkovnik Zakir Həsənov hərbi hissədə şəxsi heyətin döyüş hazırlığını, mənəvi-psixoloji durumunu yoxlayıb, sosial-məişət şəraiti ilə tanış olub və bu istiqamətdə qarşıda duran tapşırıqları bir daha vəzifəli şəxslərə çatdırıb.

Müdafiə naziri qərargah binası, döyüş texnikaları üçün saxlanclar, silah-sursat anbarı, avtomobil parkı, tibb məntəqəsi, əsgər yataqxanası, yeməkxana, hamam-camaşırxana kompleksi, digər inzibati və xidməti obyektlərə baxış keçirib, eləcə də qoşunların döyüşə hazırolma səviyyəsinin artırılması və döyüş vasitələrinin effektiv istifadəsi ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

Sonda Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətlə birlikdə nahar edib.

# Ötən il Azərbaycanla Əfqanıstanın ticarət dövriyyəsi 37 faiz artıb



2018-ci ildə Azərbaycanla Əfqanıstanın ticarət dövriyyəsi 37 faiz artıb.

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu barədə İqtisadiyyat naziri Şahin Mustafayev Əfqanıstan İslam Respublikasının Maliyyə naziri, Prezidentin Baş Müşaviri Məhəmməd Humayun Qayuminin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə deyib.

Nazir Azərbaycanın Əfqanıstanla ikitərəfli əməkdaşlığa önəm verdiyini, əlaqələrin genişlənməsində dövlət başçılarının siyasi iradəsini, ölkə rəhbərləri arasında keçirilən görüşlərin, aparılan danışıqların mühüm əhəmiyyətini vurğulayıb.

Ölkələrimiz arasında əməkdaşlığın əsas istiqamətlərindən olan ticarət əlaqələri barədə danışan Ş.Mustafayev bildirib ki, 2018-ci ildə iki ölkənin ticarət dövriyyəsi 37 faiz artıb. Artım tendensiyası 2019-cu ildə də davam edir.

Azərbaycanın əlverişli iqtisadi-coğrafi mövqedə, nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşdiyini qeyd edən nazir Əfqanıstanın ölkəmizin tranzit potensialından, xüsusilə Lapis-Lazuli nəqliyyat dəhlizindən daha geniş istifadə imkanlarını vurğulayıb.

Əməkdaşlığın inkişafı perspektivlərinə gəlincə, Ş.Mustafayev enerji, sənaye, kənd təsərrüfatı, ticarət və investisiya, kiçik və orta sahibkarlıq, İKT, humanitar və sair sahələrdə potensialı qeyd edib.

İqtisadiyyat naziri Azərbaycanın əlverişli biznes və investisiya mühiti barədə məlumat verib, iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi üçün imkanları diqqətə çatdırıb, əfqanıstanlı sahibkarları ölkəmizdə yaradılmış işgüzar şəraitdən yararlanmağa dəvət edib.

Ölkəsinin Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduğunu qeyd edən əfqanıstanlı nazir sənaye, ticarət, investisiya və digər sahələrdə əlaqələrin inkişafı barədə fikirlərini bölüşüb.

Görüşdə Azərbaycan-Əfqanıstan iqtisadi əlaqələrinin genişləndirilməsinə dair müzakirələr aparılıb.

# Bakıda Azərbaycan-Əfqanıstan iqtisadi əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun ilk iclası keçirilib



İyulun 16-da Bakıda Azərbaycan-Əfqanıstan iqtisadi əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Birgə İşçi Qrupunun həmsədri, İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov dövlət başçılarının siyasi iradəsinin, keçirilən görüşlərin, aparılan danışıqların Azərbaycan-Əfqanıstan əməkdaşlığının inkişafı üçün möhkəm zəmin yaratdığını diqqətə çatdırıb. Qeyd edib ki, iki ölkə arasında əməkdaşlığın müqavilə-hüquq bazası yaradılıb, 15-dək sənəd imzalanıb, iqtisadi əməkdaşlıq üzrə İşçi Qrupu yaradılıb.

S.Məmmədov ötən il iki ölkənin ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artdığını, bununla belə, ticarət əlaqələrinin daha da genişləndirilməsi üçün imkanları qeyd edib.

Ölkələr arasındakı tranzit əməkdaşlığından danışan Birgə İşçi Qrupunun həmsədri ikitərəfli tranzit yük daşımalarının həcminin artırılması istiqamətində görülmüş işlərin, bu sahədə "Tranzit Ticarət və Nəqliyyat üzrə əməkdaşlıq haqqında Saziş"in (Lapis Lazuli marşrutu) imzalanmasının əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, 2017-ci ildə istismara verilmiş Bakı-Tbilisi-Qars yeni dəmir yolu, yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı tranzit əməkdaşlığının genişləndirilməsinə yeni imkanlar açır.

İclasda Azərbaycanda aparılan iqtisadi islahatlar, iş adamları üçün yaradılmış əlverişli biznes və investisiya mühiti barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı ölkəsi siyahısına daxil edilib, dünyanın ən çox islahat aparan ölkəsi elan olunub.

Əfqanıstan İslam Respublikasının Maliyyə naziri, Prezidentin Baş müşaviri, Azərbaycan-Əfqanıstan Birgə İşçi Qrupunun həmsədri Məhəmməd Humayun Qayumi ölkəsinin Azərbaycanla iqtisadi əməkdaşlığın inkişafında maraqlı olduğunu, əlaqələrin genişlənməsində iş adamları arasında görüşlərin təşkilinin əhəmiyyətini vurğulayıb.

İclasda ölkələrimiz arasında iqtisadi-ticarət, investisiya, təhsil, səhiyyə, nəqliyyat və digər sahələrdə əməkdaşlığın inkişafı perspektivləri müzakirə olunub.

Sonda Azərbaycan-Əfqanıstan iqtisadi əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun iclasının yekunlarına dair protokol imzalanıb.

# Azərbaycan Prezidentinin xüsusi nümayəndəsinin Keşikçidağ kompleksi ərazisində törədilmiş insidentlə bağlı açıqlaması

Azərbaycan Respublikası Prezidentinin sərhəd və Xəzər dənizi məsələləri üzrə xüsusi nümayəndəsi Xələf Xələfov Keşikçidağ mağaralar kompleksi ərazisində bir qrup şəxs tərəfindən Azərbaycan sərhədçilərinə qarşı törədilmiş insidentlə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.

*- Məlum olduğu kimi, iki gün əvvəl bir qrup şəxs Keşikçidağ mağaralar kompleksi ərazisində Gürcüstandan Azərbaycan istiqamətində sərhədi pozaraq Azərbaycan sərhədçilərinə hücum edib, onları nalayiq ifadələrlə təhqir edib və güc tətbiq edərək silah-sursatlarını əllərindən alıblar. Bununla bağlı nə söyləyə bilərsiniz?*

- Bəli, təəssüflər olsun ki, iyulun 14-də bir qrup şəxs tərəfindən birbaşa Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə yönəlmiş təxribat xarakterli, dövlət sərhədinin keşiyində duran sərhəd naryadına qarşı törədilən cinayət əməli baş verib. Güman edirəm ki, bu insidentin Gürcüstan hökuməti ilə əlaqəsi yoxdur, lakin Gürcüstan sərhədçiləri öz hərəkətsizliyi ilə bu təxribatçıların və cinayət ünsürlərinin Azərbaycan Respublikası ərazisinə buraxılmasına görə məsuliyyət daşıyırlar. Sözsüz ki, bu kimi təxribatlar və insidentlər iki ölkə arasında təşəkkül tapmış dostluq, mehriban qonşuluq və strateji tərəfdaşlıq münasibətlərinə zərbə vurur. Bu cinayəti törədən şəxslər məsuliyyətə cəlb edilməli və qanunların tələbinə uyğun cəzalanmalıdırlar.

*- Bugünə qədər Keşikçidağ mağaralar kompleksi ilə bağlı mediada müxtəlif fikirlər səsləndirilir. Bu barədə danışmağınızı xahiş edirik.*

- Dövlət sərhədinin delimitasiyası üçün hər hansı dini-mədəni və sair qeyri-hüquqi faktlar əsas təşkil edə bilməz. Keşikçidağ mağaralar kompleksini əhatə edən sahə bütün mövcud hüquqi sənədlər, faktiki istifadə vəziyyətinə görə hər zaman Azərbaycan ərazilərinə aid olub. Bu, eyni zamanda, hələ 1963-cü ildə Gürcüstan SSR Ali Soveti tərəfindən təsdiq edilmiş topoqrafik növbətçi xəritələrdə öz əksini tapıb və SSRİ-nin süqutuna qədər tərəflər arasında inzibati sərhəd kimi qəbul edilib. Buna görə də hüquqi baxımdan qeyd edilən sahə ilə bağlı hər hansı mübahisədən və ya iddiadan söhbət gedə bilməz. Eyni zamanda, bu sahə də razılaşdırılmayan digər sahələr kimi delimitasiya çərçivəsində razılaşdırılmalı, iki dövlət arasında imzalanacaq dövlət sərhədinə dair müqavilədə təsbit olunmalıdır.

*- Növbəti mərhələdə komissiyalar çərçivəsində hansı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur?*

- Təəssüf hissi ilə qeyd etməliyəm ki, Gürcüstan və Azərbaycan komissiyalarının işində uzun fasilələr olub. Bu fasilələrə səbəb partnyorların tez-tez dəyişməsidir. Azərbaycan tərəfi komissiyaların iclaslarının davamlı və ardıcıl olması üçün səylər göstərib. Bu il mayın 23-24-də Bakı şəhərində keçirilmiş Azərbaycan Respublikası ilə Gürcüstan arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası üzrə növbəti 12-ci iclasda komissiyaların işçi qrupları səviyyəsində dövlət sərhəd xəttinin razılaşdırılmamış sahələrinə yerində baxış və müvafiq ölçmə işlərinin aparılması barədə razılıq əldə olunub və tərəfimizdən bu işlərin cari ilin avqust ayının ikinci yarısında həyata keçirilməsi təklif edilib. Həmin görüşün nəticələrinə görə, komissiyaların növbəti iclasının Gürcüstanda keçirilməsi nəzərdə tutulur.

# İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nümayəndələri Milli Məclisdə olublar

İyulun 16-da Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyevanın İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının nümayəndə heyəti ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, görüşdə Sevinc Fətəliyeva Azərbaycanın dinamik inkişaf edən ölkə olduğunu deyib. Bildirilib ki, ölkəmiz müsəlman Şərqində ilk dəfə demokratik, parlamentli dövlət qurub. Ötən il Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyi təntənəli surətdə qeyd olundu. Hazırda ölkəmizdə siyasi, iqtisadi, sosial, humanitar sahələrdə əhəmiyyətli islahatlar aparılır. Enerji sektorunda həyata keçirilən qlobal layihələrdə ölkəmiz fəal iştirak edir. Biz region və dünya ölkələri ilə ikitərəfli qarşılıqlı faydalı əməkdaşlıq qururuq. Ölkəmizdə multikultural, tolerantlıq kimi dəyərlər geniş təbliğ olunur. Qazanılan nailiyyətlər Azərbaycanın beynəlxalq səviyyədə mövqeyinin daha da möhkəmlənməsinə xidmət edir.

Diqqətə çatdırılıb ki, dövlətimizin sürətli inkişafında parlament önəmli rol oynayır. Bütün strukturlarda olduğu kimi, parlamentdə də qadınlar yüksək səviyyədə təmsil olunur. Qanunverici orqanda həyatın müxtəlif sahələrini əhatə edən komitələr formalaşıb. Xarici ölkələrlə əlaqələr üzrə parlamentlərarası işçi qrupları mövcuddur. Deputatlarımız qanun yaradıcılığı ilə yanaşı, mötəbər beynəlxalq təşkilatlarda da fəal iş aparırlar.

Sevinc Fətəliyeva Heydər Əliyev Fondunun ölkəmizdə və xaricdə sosial, təhsil, səhiyyə, mədəniyyət sahələrində həyata keçirdiyi önəmli layihələr barədə məlumat verib. Azərbaycanda dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən "ASAN xidmət" mərkəzlərinin fəaliyyətindən bəhs edib.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının İnkişaf Əməkdaşlığı üzrə Direktorluğunun şöbə müdiri Ana Fernandez səfərin məqsədinin Azərbaycanın beynəlxalq əməkdaşlıq sahəsində təcrübəsinin öyrənilməsindən ibarət olduğunu söyləyib. O, ölkəmizdə müşahidə etdiyi inkişafdan məmnunluğunu ifadə edib. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) uğurlu fəaliyyəti barədə söhbət açıb. Qurumun dünyanın müxtəlif bölgələrində mövcud olan sosial problemlərin aradan qaldırılmasına verdiyi dəstəyi yüksək qiymətləndirib. Qonaq təmsil etdiyi təşkilatla AIDA arasında əməkdaşlığın əhəmiyyətindən danışıb. Qeyd edilib ki, iqtisadi cəhətdən sürətlə inkişaf edən Azərbaycan dünyada getdikcə daha böyük nüfuz qazanır.

Sonra qonaqları maraqlandıran suallar cavablandırılıb.

# Xarici İşlər nazirləri tərəfindən keçirilən üçtərəfli görüşlər münasibətlərin inkişafına töhfə verir



Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov ölkəmizdə səfərdə olan Türkiyə və Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin sədrləri Volkan Bozkır və Sofio Katsaravanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə, həmçinin Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov iştirak edib.

Nazir Elmar Məmmədyarov üçtərəfli formatda Xarici İşlər nazirləri tərəfindən mütəmadi olaraq səmərəli görüşlərin keçirildiyini qeyd edərək, qanunverici qurumlar səviyyəsində üçtərəfli iclasların keçirilməsini təqdirəlayiq hal kimi qiymətləndirib və parlament diplomatiyasının əməkdaşlıq əlaqələrinin inkişafında mühüm rol oynadığını xüsusi vurğulayıb.

Parlamentlər arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi və mövcud formatın genişləndirilməsi məqsədilə faydalı fikir mübadiləsinin aparıldığını bildirən qonaqlar hər üç ölkənin Xarici İşlər nazirləri tərəfindən keçirilən üçtərəfli görüşlərin münasibətlərin inkişafına töhfə verdiyinə əminliklərini ifadə ediblər. Qonaqlar regionda mövcud olan münaqişələrin beynəlxalq hüququn prinsipləri, ələlxüsus dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri və ərazi bütövlüyü çərçivəsində həllinin zəruriliyini vurğulayıblar.

Öz növbəsində, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verən nazir Elmar Məmmədyarov münaqişənin həllinin regionda sülhü və rifahı möhkəmləndirəcəyinə əminliyini qeyd edib və ölkəmizin təşəbbüsü ilə həyata keçirilən layihələrdən erməni xalqının da faydalana biləcəyini bildirib.

Görüşdə tərəflər, həmçinin hər üç ölkənin iştirakı ilə həyata keçirilən layihələr, eləcə də qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# İsrailin Vergi Orqanının rəhbəri Azərbaycanın vergi sistemindəki islahatlar barədə məlumatlandırılıb



Vergilər naziri Mikayıl Cabbarov İsrailin Vergi Orqanının baş direktoru Eran Yaakovla görüşüb.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, görüşdə qonağa Azərbaycanın vergi sistemində aparılan islahatlar barədə məlumat verilib, ölkələrin vergi qurumları arasında ikitərəfli əməkdaşlıq və təcrübə mübadiləsi müzakirə edilib, həmçinin qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

E.Yaakov nazirliyin Çağrı mərkəzində olub, Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin fəaliyyəti və kommersiya hüquqi şəxslərin "Bir Pəncərə" qeydiyyat sisteminin iş prinsipi ilə də tanış olub.

## Atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub

Sutka ərzində Ermənistan və Azərbaycan qoşunlarının təmas xəttində nisbi sakitlik müşahidə olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, cəbhənin bəzi sahələrində atəşkəs rejimi ara-sıra açılan atəşlə pozulub.

# Unikal memarlıq əsərlərinin müəllifi

İyulun 16-da Beynəlxalq Muğam Mərkəzində Əməkdar memar, Dövlət mükafatı laureatı Rasim Əliyevin 85 illiyinə həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdən əvvəl görkəmli memarın "Keçmişdən gələcəyə" adlı kitabının təqdimatı olub.

Dövlət və hökumət rəsmilərinin, elm, mədəniyyət və incəsənət xadimlərinin iştirak etdiyi tədbirdə Azərbaycan Memarlar İttifaqı idarə heyətinin sədri Elbəy Qasımzadə görkəmli memarın ömür yolundan və memarlıq sənətinin inkişafındakı xidmətlərindən danışıb. Bildirib ki, Rasim Əliyev onlarla gözəl memarlıq əsərinin, bu gün abidə statusuna layiq olan binaların müəllifidir.

Vurğulanıb ki, uzun illər Bakının baş memarı olmuş Rasim Əliyevin şəhərimizin gözəlləşməsində xidmətləri böyükdür: "Rasim müəllim bir sıra unikal memarlıq əsərlərinin müəllifidir. Onun əsərlərinin əksəriyyətində ölkəyə olan məhəbbətinin təzahürləri hiss olunur. O, həm də gözəl rəssamdır. Onun çəkdiyi portretlərdə insan xarakteri, onun gözəlliyi ön plandadır. Rasim Əliyevin rəng seçimi, rəssamlıq texnikası, tablolarında əks etdirilən lirika onun öz xarakterindən irəli gəlir".

Qeyd olunub ki, bu gün görkəmli memarın böyük tələbə ordusu var. O, nəinki Azərbaycanda, xarici ölkələrdə də geniş tanınan sənət adamıdır.

Tədbirdə çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev Prezident İlham Əliyevin görkəmli memarın "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında imzaladığı müvafiq sərəncamı oxuyub.

Rasim Əliyevin sənətinin həmişə dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini vurğulayan nazir bildirib ki, o, Azərbaycan memarlıq sənətinin ən görkəmli nümayəndələrindən biridir: "Rasim Əliyevin qoyduğu irs, yaratdığı sənət inciləri daim yaşayacaq, mədəniyyətimizin inkişafına müsbət təsirini göstərəcək. Rasim müəllimin yaradıcılığı keçmişdən gələcəyə bir körpüdür".

Əbülfəs Qarayev qeyd edib ki, Bakının, eləcə də ölkəmizin bölgələrində yerləşən bir sıra tarixi abidələrimizin bugünkü görkəmində məhz Rasim Əliyevin dəstxəti görünür.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev görkəmli sənətkarın Azərbaycan memarlıq sənətinə verdiyi töhfələrdən danışıb.

Qeyd olunub ki, görkəmli ziyalı, akademik Həsən Əliyevin ailəsində dünyaya göz açan Rasim Əliyev Naxçıvanda Hüseyn Cavidin qəbri üzərində memarlıq-xatirə kompleksinin, Heydər Əliyev Beynəlxalq Aeroportunun və Naxçıvan Hava limanının, Bakının bir neçə metro stansiyasının, şəhərin əsas parklarının, Azərbaycanın Türkiyədəki səfirliyinin binasının və digər memarlıq sahəsində özünəməxsusluğu və bənzərsizliyi ilə seçilən layihələrin müəllifi və həmmüəllifidir. O, 1965-ci ildə Bakının baş memarı təyin olunub və 23 il müddətində bu vəzifəni şərəflə, ləyaqətlə yerinə yetirib.

Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, Xalq rəssamı Ömər Eldarov, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti Fərhad Bədəlbəyli və başqaları çıxış edərək Rasim Əliyevin memarlığa və rəssamlığa olan məhəbbətindən söz açıblar. Onun istedadlı memar, peşəkar rəssam olmasından danışan natiqlər memarın yaradıcılıq və şəhərsalma prosesinin təşkilatçısı kimi fəaliyyətini yüksək qiymətləndiriblər.

Tədbirdə Lider TV-nin "Xəzərin sahilində" verilişinin Rasim Əliyevə həsr olunmuş xüsusi buraxılışının təqdimatı olub.

Sonda çıxış edən yubilyar tədbirin təşkilində əməyi olan hər kəsə dərin təşəkkürünü bildirib.

Tədbir konsert proqramı ilə davam edib.

# Azərbaycan dövlətinin uzun illərə söykənən qadın siyasəti var



"Azərbaycan dövlətinin uzun illərə söykənən qadın siyasəti var. Cəmiyyətin inkişafının bütün mərhələlərində qadınlar kişilərlə bərabər dövlət quruculuğunda, siyasi qərarların verilməsində fəal iştirak ediblər. Ölkəmizdə milli qadın siyasəti tariximizin şanlı səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət statusu alıb. Hələ 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətində qadınlara seçib-seçilmək hüququ verilmişdi. Bir çox qabaqcıl ölkələrdə isə qadınlara bu hüquq illər sonra verildi".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Hicran Hüseynova Avropa Şurasının gender bərabərliyi bölməsinin rəhbəri Katerina Boloqnesenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşündə söyləyib.

Komitə sədri qeyd edib ki, qadın siyasəti müstəqil Azərbaycan dövlətinin əsas prioritet sahələrindəndir. Hazırda Azərbaycanda gündən-günə genişlənən qadın hərəkatı var. Ölkəmizdə gender bərabərliyinin, qadın hüquqlarının təmin edilməsi istiqamətində mühüm işlər görülüb. Bu gün Azərbaycan xanımları dünyaya fəal qadın nümunəsi göstərirlər.

Hicran Hüseynova Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gedən iqtisadi və sosial inkişaf, o cümlədən dövlət qadın siyasətinin həyata keçirilməsində əldə olunan nailiyyətlər, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə danışıb.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminə toxunan Hicran Hüseynova deyib ki, münaqişə nəticəsində çoxlu sayda azərbaycanlı qadın zorakılığa məruz qalıb. Qadın zorakılığına qarşı mübarizəyə dair beynəlxalq sənədlər qəbul edilərkən bu amil də nəzərə alınmalıdır. Bu qadınlar təkcə fiziki deyil, eyni zamanda, mənəvi zorakılığa da məruz qalıblar. Bu məsələ ilə bağlı birgə fəaliyyət müsbət nəticələr verə bilər.

Qonaqlar Azərbaycanda həyata keçirilən dövlət qadın siyasətinin təqdirəlayiq olduğunu bildiriblər.

Görüşdə əməkdaşlıqla bağlı məsələlər ətrafında müzakirələr aparılıb.

# BMT-nin Əhali Fondu ilə birgə Şəkidə növbəti regional konfrans keçirilib



Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanovanın təşəbbüsü ilə ölkəmizdə "Qahirə+25" konfransına hazırlıq kampaniyasına start verilib. Məqsəd "Qahirə+25" konfransına hazırlıq prosesində respublikamızın iqtisadi və sosial inkişafı, əhalinin problemlərinin həlli, habelə insan hüquqları sahəsində əldə etdiyi uğurlara əsaslanaraq insan hüquqları üzrə Milli Fəaliyyət Proqramı və Dayanıqlı İnkişaf Məqsədləri nəzərə alınmaqla vəziyyətin daha da təkmilləşdirilməsi üzrə tövsiyələrin müzakirə olunmasıdır.

Kampaniya çərçivəsində ilk olaraq ombudsman BMT-nin Əhali Fondu ilə birlikdə Lənkəran şəhərində Ümumdünya Əhali Gününə həsr edilmiş regional konfrans keçirib. Hazırda adıçəkilən kampaniya uğurla davam etdirilir və müvəkkil növbəti regional konfransı Şəki şəhərində keçirib.

Ombudsman konfransda çıxış edərək bildirib ki, tədbir Ümummilli Liderimiz Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 50 illiyinin qeyd olunduğu günlərdə keçirilir. Dahi şəxsiyyətin Azərbaycana rəhbərlik etdiyi illər ölkəmizin inkişafında yeni mərhələyə yol açıb.

E.Süleymanova məruzə ilə çıxış edərək Ümumdünya Əhali Gününün yaranma tarixi barədə danışıb. Müvəkkil Ümumdünya Əhali Günü təsis edildikdən 5 il sonra, 1994-cü ildə keçirilən və bu il 25 illiyi qeyd edilən, əhali inkişafının qlobal platforması olan, habelə iştirakçısı olduğu Əhali və İnkişaf üzrə Qahirə Konfransının, həmçinin 1999-cu ildə Haaqada keçirilmiş "Qahirə+5" konfransının məqsəd və məramları barədə məlumat verib. Bildirilib ki, Qahirə Konfransının qarşıdakı illər üzrə müəyyən etdiyi proqramında demoqrafik problemlər, kişilərin və qadınların bərabər hüquqlarının təmin edilməsi və qadınların səlahiyyətləndirilməsi, qadınlara qarşı zorakılığın aradan qaldırılması, ailə məsələləri, reproduktiv sağlamlıq və ailə planlaşdırılması, ana və körpə ölümü, təhsil və sağlamlıq hüquqları, yoxsulluğun aradan qaldırılması, əhalinin bütün təbəqələrinin, o cümlədən uşaqların, gənclərin, ahılların hüquqları kimi problemlər önə çəkilib. Bu məsələlərin hər zaman öz aktuallığını saxlaması, XXI əsr üçün müəyyən olunmuş BMT-nin Minilliyin İnkişaf Məqsədləri və 2016-2030-cu illər üçün nəzərdə tutulmuş Dayanıqlı İnkişaf Məqsədlərində də bəzilərinin öz əksini tapması Qahirə Konfransının və qərarlarının böyük əhəmiyyətini sübut edir.

E.Süleymanova qeyd edib ki, Konstitusiyamızın 12-ci maddəsində insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətin ali məqsədi kimi müəyyən edilməsi əhali problemlərinin həllinin möhkəm hüquqi bazaya söykəndiyini göstərir.

Müvəkkil insan hüquqları sahəsində çoxşaxəli fəaliyyəti barədə də ətraflı məlumat verib.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı ailə, qadın və uşaq məsələlərinin Azərbaycan dövlətinin diqqətində olduğunu bildirib, bu sahədə müsbət statistik tendensiya barədə məlumat verib, qadınlara və uşaqlara xüsusi qayğı göstərildiyini vurğulayıb. O, səmərəli əməkdaşlıq etdiyi ombudsmanın daim insan hüquqları baxımından bu mövzulara böyük önəm verdiyini qeyd edərək, eyni zamanda, ailə planlaşması üzrə müvafiq işlərin aparılmasının, "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsinin daha da təkmilləşdirilməsinin və digər məsələlərin vacibliyini diqqətə çatdırıb.

Konfransda rayonların təmsilçilərinin də çıxışları və təklifləri dinlənilib.

Kampaniya çərçivəsində növbəti konfrans Gəncədə keçiriləcək.

# DSX Akademiyası məzunlarının buraxılış mərasimi olub

Bu il yaradılmasının 12-ci ildönümünü qeyd edən Dövlət Sərhəd Xidmətinin (DSX) Akademiyası böyük inkişaf yolu keçərək qabaqcıl hərbi təhsil müəssisəsi səviyyəsinə yüksəlib.









Ötən müddətdə DSX-nin Akademiyasında Azərbaycan dövlətçiliyinə sədaqətli, peşəkar sərhədçi zabitlərin hazırlanması, hərbi qulluqçuların döyüş hazırlığının təkmilləşdirilməsi, dövlət sərhədinin mühafizəsi və hərb sahəsində elmi tədqiqatların aparılması üçün mükəmməl elmi-pedaqoji potensial və ən yüksək standartlara cavab verən maddi-texniki baza formalaşdırılıb.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, iyulun 16-da Dövlət Sərhəd Xidməti Akademiyasının məzunlarının təntənəli buraxılış mərasimi keçirilib. Dövlət Bayrağı Meydanında təşkil olunmuş mərasimdə DSX-nin rəhbər heyəti, Bakı qarnizonu hərbi hissələrinin hərbi qulluqçuları, gənc zabitlərin valideynləri və ailə üzvləri iştirak ediblər.

Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev gənc zabitləri təbrik edib, onlara xidmətdə uğurlar arzulayıb, tövsiyə və tapşırıqlarını verib. DSX rəisi Azərbaycanın hər bir sərhədçisi kimi onların da dövlətçilik ənənələrinə daim sadiq olacaqlarına, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında dövlət sərhədlərinin etibarlı mühafizəsi naminə əzmlə xidmət edəcəklərinə, Azərbaycan sərhədçisi adını daima uca tutacaqlarına inamını ifadə edib.

Tədbirdə Azərbaycan Sərhəd Mühafizəsinə göstərilən qayğı sayəsində əldə olunmuş xidməti nailiyyətlər haqqında məlumat verilib, dövlət bayrağımızın qısa müddətdə işğaldan azad ediləcək şəhər və kəndlərimizdə dalğalanacağı, Heydər Əliyev dövlətçiliyinin əsgəri olan Azərbaycan sərhədçilərinin Ali Baş Komandanın bütün əmr və göstərişlərini ən yüksək səviyyədə icra etməyə hər an hazır olmaları bildirilib.

Akademiyanı bitirən leytenantlara diplomlar təqdim olunduqdan sonra gənc zabitlər "Sərhədçi andı"nı qəbul ediblər. Tədbirin sonunda zabitlər və kursantlar təntənəli marşla tribunanın önündən keçiblər.

Tədbirdən sonra Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev kursantların valideynləri və ailə üzvləri ilə görüşüb, gənc sərhədçi zabitləri vətənpərvər ruhda tərbiyə etdiklərinə görə onlara minnətdarlığını bildirib. E.Quliyev DSX rəisinin sabiq şəxsi heyət üzrə müavini mərhum general-mayor Məhəmməd Abbasquliyevin oğlu leytenant Əli Abbasquliyev ilə görüşərək DSX Akademiyasının məzunu olması münasibətilə onu təbrik edib, sərhədçi zabit nəslinin nümayəndəsi və atasının layiqli davamçısı kimi gələcək xidmətində uğur və müvəffəqiyyətlər arzulayıb.

Mərasimdən sonra gənc zabitlər Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər.

***"Azərbaycan"***

# İslahatlar yeni iqtisadi artımlarla əlamətdardır

*Əvvəli 1-ci səh.*

Beləliklə, sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2019-cu ilin yanvar-iyun aylarında 23,6 milyard manatlıq və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,8 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 15,7 faiz artıb. Sənaye məhsulunun 69,5 faizi mədənçıxarma sektorunda qeydə alınsa da, ildən-ilə qeyri-neft sektorunda da artım baş verir.

Sənayedə əldə olunan uğurlu nəticələr göstərir ki, Azərbaycan Respublikası qlobal miqyasda baş verən sənaye inqilabının çağırışlarına uyğun olaraq bu sahədə siyasətini keyfiyyətcə yeni müstəviyə qaldırıb.

Azərbaycan dövlətinin iqtisadi inkişaf xəttinin hədəfləri aydındır: neftdən asılı olmayan iqtisadiyyat, sahibkarlığın və ixracın dəstəklənməsi, modern və innovasiyalara əsaslanan sənayeləşmə, eləcə də bütün bunlardan irəli gələrək əhalinin sosial rifahının yüksəldilməsi. Məhz bu strategiyanın uğurla həyata keçirilməsi Azərbaycanda iqtisadi inkişafı, o cümlədən sənayeləşməni gücləndirib. Hər ilin hesabat dövrlərində qeydə alınan nəticələr bunu təsdiq edir.

İqtisadiyyatda müsbət makroiqtisadi göstəricilərin isə ilin ikinci yarısında da artan xətlə yüksələcəyi gözləniləndir. Çünki yeni islahatlar kursu məhdud dövrlə kifayətlənməyərək perspektivdə iqtisadiyyatın bütün sahələrində davamlı artımı və inkişafı nəzərdə tutur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Düşərgə iştirakçıları Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər

Şahdağ Turizm Mərkəzində təşkil olunan "YayFest" gənclər düşərgəsinin iştirakçıları iyulun 16-da tanınmış incəsənət xadimləri və media nümayəndələri ilə görüşüb, müxtəlif mövzularda təlimlərə qatılıblar.

AZƏRTAC xəbər verir ki, düşərgədə Bakıdan və regionlardan müsabiqə əsasında seçilən 500-dən çox gənc iştirak edir.

Azərbaycan Respublikası Gənclər Fondunun, Dövlət Turizm Agentliyinin, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının və "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşəbbüsü ilə təşkil olunan düşərgənin məqsədi gənclərin asudə vaxtının səmərəli təşkili, onlarda vətənpərvərlik hisslərinin gücləndirilməsi, gənclər arasında təhsilin və sağlam həyat tərzinin təşviqidir.

Günün ikinci yarısında Quba Soyqırımı Memorial Kompleksinə gələn düşərgə iştirakçıları ermənilərin törətdikləri soyqırımı haqqında ətraflı məlumatlandırılıblar.

Tarix elmləri doktoru, professor Solmaz Rüstəmova-Tohidi bildirib ki, 101 il əvvəl erməni millətçiləri Bakıda, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakini məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetiriblər. Azərbaycanın Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, Quba, İrəvan və digər bölgələrində kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirən düşmənin bu vandalizm əməlləri nəticəsində yüzlərlə yaşayış məntəqəsi dağıdılıb, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə-yeksan edilib.

Beş gün davam edəcək düşərgənin gedişində gənclərlə azərbaycançılıq ideologiyası, tarix, incəsənət, sosial media, innovasiya və başqa mövzularda təlim və seminarlar təşkil edilir, mühazirələr dinlənilir və müzakirələr aparılır. Həmçinin iştirakçılar komanda işlərinə, əyləncəli oyunlara, düşərgənin keçirildiyi regiondakı tarixi-mədəni və təbiət ərazilərinə səfərlərə cəlb olunurlar.

Hər günün sonunda gənclər üçün estrada ulduzlarının iştirakı ilə xüsusi konsert proqramı və filmlərin nümayişi təşkil edilir.

Layihə çərçivəsində gənclər üçün kütləvi hərbi-hazırlıq təlimləri də təşkil olunacaq. Təlimdə Dövlət Sərhəd Xidmətinin xüsusi təyinatlı qüvvələrinin iştirakı ilə müxtəlif tipli hərbi texnika, helikopter və pilotsuz uçuş aparatlarının döyüş qabiliyyəti, praktiki uçuş imkanları nümayiş etdiriləcək.

# İkinci tur davam etdirilib

Yeni Azərbaycan Partiyasının təşkil etdiyi "Gənc liderlər üçün yay məktəbləri"nin ikinci turu çərçivəsində təlim və tədbirlər iyulun 16-da da davam etdirilib.

AZƏRTAC xəbər verir ki, günün birinci yarısında icebreaker təşkil olunub. Sonra "Sosial şəbəkələr: təhlükəsizlik qaydaları" mövzusunda təlim keçirilib.

YAP Gənclər Birliyi ofisinin əlaqələndiricisi Elmar Məmmədov çıxış edərək təlimin mövzusu və faydaları barədə məlumat verib.

Sonra təlimin moderatoru, YAP Nərimanov rayon təşkilatının fəalı Fuad Babayev sosial şəbəkələrdən istifadə qaydaları və təhlükəsizlik məsələlərindən geniş bəhs edib.

Sonda gənclərin sualları cavablandırılıb.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## "Şahdəniz-2" "Ən yaxşı mühəndislik layihəsi" mükafatına layiq görülüb



*Əvvəli 1-ci səh.*

İl ərzində yataqdan 11,5 milyard standart kubmetr qaz və 2,5 milyon ton (təqribən 20,5 milyon barel) kondensat hasil olunub.

Keçən il, həmçinin "Şahdəniz"dən ümumi qaz hasilatının 100 milyard kubmetrə çatması qeyd edilib. Bu nailiyyət yataqdan ilk kommersiya qaz həcmlərinin hasilatına başlanmasının və Cənubi Qafqaz Boru Kəmərinin işə düşməsinin elan edildiyi vaxtdan 12 il sonra - dekabrın axırlarında əldə olunub.

"Şahdəniz-2" yatağın işlənməsinin mühüm bir mərhələsini əhatə edən layihədir. Buradan qazın hasil edilməsi və onun Gürcüstan-Türkiyə sərhədinə çatdırılması üçün təxminən 28 milyard ABŞ dolları dəyərində kapital qoyuluşu həyata keçirilib.

"Şahdəniz-2" ilk dəfə olaraq Azərbaycan qazını Avropa bazarlarına çıxaracaq "Cənub qaz dəhlizi"nin başlanğıc nöqtəsidir. Ən yüksək sabit hasilat dövründə bu layihə çərçivəsində ildə 16 milyard kubmetr qaz əldə ediləcəyi gözlənilir. Beləliklə, birinci mərhələnin hasilatı da daxil olmaqla "Şahdəniz"dən hər il 26 milyard kubmetr qaz çıxarılacağı nəzərdə tutulur. Yataqdan kondensat da hasil edilir ki, bunun da gündəlik ümumi həcmi gözlənildiyinə görə 120 min barel olacaq.

"Şahdəniz-2"nin müvəffəqiyyətlə işə düşməsi keçən il mayın 29-da Bakı yaxınlığındakı Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin açılış mərasiminin keçirilməsinə imkan verdi. "Şahdəniz-2"dən sonra - iyunun 12-də bu nəhəng layihənin növbəti seqmenti olan TANAP (Transanadolu Qaz Boru Kəməri) işə salındı. İyunun 30-dan isə "Şahdəniz-2" layihəsindən plana uyğun şəkildə Türkiyəyə ilk kommersiya məqsədli daşımalar başlandı.

"Şahdəniz" qazının ixracı ahəngdar davam edir. Mavi yanacağın ixracının getdikcə artacağı gözlənilir. Belə ki, bu il ərzində TANAP-la Türkiyəyə 2 milyard kubmetr, 2020-ci ildə 4 milyard kubmetr, 2021-ci ildə isə 6 milyard kubmetr Azərbaycan qazının daşınacağı nəzərdə tutulur.

Hazırda TAP-ın (Transadriatik Qaz Boru Kəməri) çəkilişi də sona çatmaq üzrədir. Bu kəmər gələn il "Şahdəniz" qazını Avropaya çatdıracaq. Beləliklə, ilk seqmenti "Şahdəniz-2" olan, öz marşrutu boyu dağlarda 2500 metr hündürlüyə qalxan və dəniz dibində 800 metr dərinliyinə enən 3500 kilometrlik "Cənub qaz dəhlizi" tam işə düşəcək.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Şəkər tozu ixracı artıb

Bu ilin yanvar-iyun aylarında ölkədən 25 min 462 ton şəkər tozu ixrac edilib.

Dövlət Gömrük Komitəsinin (DGK) məlumatına görə, hesabat dövründə ixrac edilən şəkər tozunun dəyəri 11 milyon 186 min ABŞ dolları olub.

Xatırladaq ki, ötən ilin eyni dövründə ölkədən 12 milyon 383 min dollarlıq 20 min 813 ton şəkər tozu ixrac olunmuşdu.

## Yarım ildə ölkəyə 576,5 min tonadək buğda idxal olunub



Yanvar-iyun aylarında Azərbaycana 576 min 489 ton buğda idxal edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsi (DGK) məlumat yayıb. Hesabat dövründə idxal edilən buğdanın dəyəri 130 milyon 159 min ABŞ dolları olub.

Xatırladaq ki, ötən ilin eyni dövründə ölkəyə 94 milyon 841 min dollarlıq 538 min 781 ton buğda idxal edilmişdi.

## "Aqrolizinq"lə "SOCAR Karbamid" MMC arasında bağlanmış müqavilənin icrasına başlanıb

"Aqrolizinq" ASC tərəfindən karbamid gübrəsinin bütün regional nümayəndəliklərə və rayon bölmələrinə daşınması həyata keçirilir.

Xatırladaq ki, "Aqrolizinq" ilə "SOCAR Karbamid" MMC arasında 25 min ton karbamid gübrəsinin alınması üçün müqavilə imzalanıb. Müqavilənin imzalanması ASC tərəfindən 2018-2019-cu əkin ili üzrə qeydə alınan və 2019-2020-ci əkin ilində proqnozlaşdırılan əkin sahələrinin karbamid gübrəsinə olan tələbatın hesablanması əsasında həyata keçirilib. İyulun 15-də "SOCAR Karbamid" MMC-nin direktoru Xəyal Cəfərov və "Aqrolizinq" ASC-nin sədri Elmin Rəhmanovun iştirakı ilə karbamid məhsulunun ilk alqı-satqısı təşkil olunub.



Artıq ASC tərəfindən gübrələrin güzəştli satışa çıxarılmasını təmin etmək məqsədilə karbamid gübrəsinin bütün regional nümayəndəliklərə və rayon bölmələrinə daşınması həyata keçirilir. Fermer təsərrüfat subyektlərinin rəhbərləri və sahibkarlar bütün regional nümayəndəliklərə və rayon bölmələrinə müraciət edərək həmin gübrələri asanlıqla əldə edə bilərlər. "Aqrolizinq" tərəfindən əlavə olaraq gübrələmə mövsümündə cəmiyyətin bölmələrindən uzaqda yerləşən kəndlərdə karbamid gübrəsinin səyyar satışı da həyata keçiriləcək.

"Məhsul istehsalçılarının nəzərinə çatdırılır ki, yerli istehsal olan karbamid gübrəsi ötən illərdə xarici ölkələrdən gətirilən gübrələrdən daha ucuz qiymətə satılacaq, bu da ölkədə istehsal edilən kənd təsərrüfatı məhsullarının maya dəyərinin aşağı düşməsinə, məhsuldarlığın artmasına, ərzaq təhlükəsizliyinin təmin olunmasına və daxili bazarda satışa çıxarılan keyfiyyətli məhsulların istehsalının artımına səbəb olacaq", - deyə ASC-nin məlumatında bildirilir.

Azot gübrələri kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını yüksəltməkdə həlledici rol oynayır. Bu gübrələr bütün torpaq-iqlim zonalarında yüksək effektivliyi ilə fərqlənir. Əksər mineral azot gübrələri suda yaxşı həll olunur, torpaqdan asan yuyulur. Azot gübrələrindən ammonyak nitrat və karbamid daha geniş yayılıb.

**Dünya əhalisi sürətlə artır. Artıq 7,5 milyard nəfərdən çoxuq. BMT-nin və digər nüfuzlu beynəlxalq təşkilatların hesablamalarına görə, əhalinin artımı qarşıdakı illərdə daha da sürətlənəcək. Bu isə o deməkdir ki, ərzağa olan tələbat da artacaq. Yəni, dünyanın ərzaq qıtlığı təhlükəsi ilə qarşılaşacağı qaçılmaz olacaq.**



# Dünyada orqanik kənd təsərrüfatı məhsullarına tələbat artır

### *Azərbaycanın bu fürsətdən istifadə etmək imkanı var*

Hazırda dünyada əhalinin ərzağa olan tələbatının ödənilməsi üçün kənd təsərrüfatının inkişafına diqqət çoxdur. Bu məqsədlə aqrar sektorda mütərəqqi texnika və texnologiyaların intensiv tətbiqi ilə ilk növbədə məhsuldarlıq artırılır. Lakin tələbatın tam ödənilməsi iddiasında olmaq hələ tezdir. Qeyd edək ki, tələbatın artması kənd təsərrüfatı məhsullarının qiymətinə də təsir göstərir. Bu isə inkişaf etmiş ölkələrdə aqrar sektoru rentabelli sahəyə çevirib, investisiya qoyuluşuna marağı artırıb.

Məlumdur ki, kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün müxtəlif intensiv üsullardan bəzən həddən artıq istifadə edilir. Sözsüz ki, belə üsullar, yəni gübrə və minerallardan normadan çox istifadə edilməsi məhsulun keyfiyyətinə və insan sağlamlığına mənfi təsir göstərir. Ən qorxulusu isə geni dəyişdirilməklə (GDO-lu) məhsulların yetişdirilməsidir. Dünya alimləri arasında belə məhsulların insan üçün ziyanlılığı olub-olmaması barədə mübahisələr davam etsə də, bu növ qidaların insan üçün zərərli olmasına meyil daha çoxdur.

Laboratoriya şəraitində yetişdirilən GDO-lu məhsulların insan orqanizminə toksik, allergik və xərçəng əmələgətirmə kimi xroniki təsirləri var. Belə məhsulların yetişdirilməsinə ötən əsrin 90-cı illərindən müxtəlif ölkələrdə etirazlar olmuşdu. Bu üzdən Avropa ölkələrində belə məhsullardan istifadə edilməsi müəyyən qədər məhdudlaşdırılır. Həmin məhsullar heyvan və bitki populyasiyaları üçün olduqca zərərlidir. Əsas problemlərdən biri GDO-lu məhsulların orqanizmdə geridonüşü olmayan dəyişikliklərə yol açmasıdır. GDO-lu yemlərlə bəslənən heyvanlardan əldə olunan süd, yumurta, ət də qida üçün yararlı deyil. Bu üsulla yetişdirilən yemlər antibiotikə qarşı davamlı, məhv edilə bilməyən bakteriyalar yaradır. İnsanlar bu cür qidalardan istifadə etdikdə orqanizmində dözümlü bakteriyalar əmələ gəlir. Həmin bakteriyalar təsirini yavaş-yavaş göstərərək bir neçə il sonra müxtəlif xəstəliklərin yaranmasına səbəb olur.

GDO-lu məhsulların heyvanlar üzərində aparılan təcrübəsi də onun zərərli olduğunu göstərib. Məsələn, geni dəyişdirilmiş pomidorla bəslənən şiçanlarda mədə xorası xəstəliyi yaranıb. GDO-lu soya ilə bəslənən siçanlarda isə qaraciyər və mədəaltı vəzin funksiyalarında pozğunluqlar meydana çıxıb. Təbii ki, heyvanlarda fəsadlar yaradan bu məhsullar insan üçün daha təhlükəlidir.

Odur ki, hazırda dünyada ekoloji cəhətdən təmiz orqanik kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə tələbatın gündən-günə artması anlaşılandır. Beynəlxalq Orqanik Kənd Təsərrüfatı Federasiyası (İFOAM) və FİBL Araşdırma İnstitutu tərəfindən 2017-ci ilin fevral ayında açıqlanan hesabata görə, dünyada 2,4 milyon istehsalçı 51 milyon hektar sahədə orqanik məhsullar yetişdirir. Ən çox orqanik məhsullar yetişdirilən ölkələr sırasında Avstraliya öndə gedir. Bu ölkədə 22,7 milyon hektar orqanik kənd təsərrüfatı məhsulları yetişdirilən sahə var. İkinci yerdə 3,1 milyon hektarla Argentina, üçüncü yerdə 2 milyon hektarla ABŞ gəlir. Bununla belə, dünya üzrə orqanik məhsul istehsalı ənənəvi kənd təsərrüfatı ilə müqayisədə 1 faiz paya malikdir. Hazırda Türkiyədə ümumi əkinçilik sahələrində orqanik məhsul yetişdirilən ərazilərin payı 1,95 faizdir. Qardaş ölkədə orqanik məhsul bazarının dəyəri 500 milyon dollar səviyyəsindədir ki, həmin məhsulların da çox hissəsi ixrac edilir.

Orqanik kənd təsərrüfatı məhsulları digər məhsullardan hansı parametrlərinə görə fərqlənir? Belə məhsullar insan sağlamlığına və ətraf mühitə zərər vermir, onların istehsalında heç bir kimyəvi maddədən istifadə edilmir, istehsalından istehlakına qədər hər mərhələsinə nəzarət olunur. Orqanik ərzaq məhsulları geni dəyişdirilməmiş, hormonsuz, kənar gübrə istifadə etmədən, dərmansız və daha önəmlisi, qatqı maddəsiz yetişdirilən qidalardır. Belə məhsulların yetişdirilməsində əsas məqsəd qida kimi əhəmiyyətli bir sahədə istehsal zamanı insan sağlamlığının ön planda tutulmasıdır.

Azərbaycanın iqliminə və torpağının münbitliyinə görə orqanik kənd təsərrüfatı məhsulları yetişdirmək imkanı genişdir. Ümumdünya Ərzaq Təşkilatının (FAO) orqanik kənd təsərrüfatı məhsulları üzrə beynəlxalq məsləhətçisi Uyğun Aksoy deyir ki, Azərbaycanda orqanik məhsulların istehsalı ilə bağlı hüquqi baza tam formalaşıb. Bundan əlavə, Azərbaycanda istehsal olunan orqanik məhsullar beynəlxalq standartlara uyğundur, xaricdəki analoqları ilə eyni keyfiyyətə malikdir və onlara verilən sertifikatlar bütün dünyada tanınır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



## Aİ ölkələrinə 5,3 milyard dollardan çox məhsul ixrac edilib

Bu ilin yanvar-iyun aylarında Azərbaycandan Avropa İttifaqına (Aİ) üzv ölkələrə 5 milyard 319 milyon 766 min ABŞ dolları dəyərində məhsul ixrac olunub.

Dövlət Gömrük Komitəsinin yaydığı məlumata görə, bu göstərici 2018-ci ilin müvafiq dövrünə nisbətən 1 milyard 170 milyon 909 min dollar çoxdur.

Altı ayda Aİ ölkələrindən Azərbaycana idxal edilən məhsulun dəyəri isə 1 milyard 162 milyon 292 min dollar olub.

## Yasamal Yaşayış Kompleksində mənzillərin növbəti seçimi olub

Ölkə başçısının 2019-cu il 14 yanvar tarixli fərmanı ilə "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"nda edilmiş dəyişikliklərə uyğun olaraq, ilk dəfə iyulun 12-də güzəştli mənzillərin öz vəsaiti hesabına, iyulun 14-də isə gözləmə qaydasında seçimi həyata keçirilib.

MİDA-nın ictimaiyyətlə əlaqələr sektorundan bildirilib ki, mənzillərin seçimi "Elektron hökumət" portalı (www.e-gov.az) üzərindən "Güzəştli mənzil" elektron sistemi vasitəsilə təhlükəsiz, şəffaf və fasiləsiz iş rejimində reallaşdırılıb.

İyulun 12-də Mənzil İnşaatı Dövlət Agentliyinin ilk layihəsi Yasamal Yaşayış Kompleksinin 6-9 saylı binalarında 10 mənzilin, həmçinin 10, 11, 12 və 13 saylı binalarında yerləşən 243 mənzilin, ümumilikdə isə 253 mənzilin yalnız öz vəsaiti hesabına ödəniş üsulu ilə seçimi qısa müddətdə başa çatıb. Bu mənzillərdən 43-ü 1 otaqlı, 146-sı 2 otaqlı, 64-ü isə 3 otaqlıdır. "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olan vətəndaşların sayı 11 min 518 nəfər, 253 mənzilin seçimində iştirak edənlərin sayı 1906 nəfər olub.

Mənzil əldə etmiş vətəndaşlar arasında ən azı 3 il hərbi xidmətdə olan, həmçinin ehtiyata və istefaya buraxılmış Azərbaycan Respublikasının hərbi qulluqçuları, ən azı 3 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər və ən azı 15 il dövlət qulluğunda qulluq edən, o cümlədən dövlət qulluğunun xüsusi növündə xidmət keçən şəxslər üstünlük təşkil edir.

İyulun 14-də gözləmə qaydasında iştirak edən 663 istifadəçidən 435-i mənzil seçimini uğurla başa çatdırıb. Qaydaya əsasən, satış müddətində seçilmiş bir mənzil həmin elan çərçivəsində daha iki şəxs tərəfindən də ardıcıl olaraq gözləmə qaydasında seçilə bilər. Gözləmə qaydasında mənzillərin seçimi bu il iyulun 17-si saat 00:00-dək davam edəcək.

Yasamal Yaşayış Kompleksində qalan 827 mənzil ilin sonunadək həm güzəştli ipoteka krediti, həm də öz vəsaiti hesabına ödəniş üsulu ilə satışa çıxarılacaq. Yaxın vaxtlarda mənzillərin satışı ilə bağlı növbəti elan veriləcək.

## "İş Qadınlarına Dəstək" İctimai Birliyi yaradılıb

İştirakçılar tədbirdən əvvəl sahibkar qadınların rəsm və məhsullarından ibarət sərgisi ilə tanış olublar. Sonra "İş Qadınlarına Dəstək" İctimai Birliyinin fəaliyyəti barədə videoçarx nümayiş etdirilib.

İB-nin sədri Vəfa Muradzadə qurumun əsas məqsədi, fəaliyyət istiqamətləri və hədəflərindən danışıb. Qeyd edib ki, "İş Qadınlarına Dəstək" İB-nin məqsədi ölkədə yüksək potensiala və dayanıqlı əsaslara malik olmaq, o cümlədən dövlət və cəmiyyət həyatında aktiv fəaliyyət göstərməkdir. Həmçinin iş qadınlarına dəstək olmaqla yanaşı, ölkədə iqtisadi, sosial inkişaf və gender bərabərliyinin təmin edilməsi ilə bağlı dövlət tərəfindən həyata keçirilən tədbirləri təbliğ etmək, sahibkarlıq və informasiya-kommunikasiya texnologiyalarından istifadə sahəsində qadınların maarifləndirilməsinə kömək etməkdir.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova bildirib ki, Azərbaycanda dövlət qadın siyasəti çox uğurla həyata keçirilir.

"Bu gün ölkəmizdə gənc qızlarımızın, qadınların iş qurmağı, sahibkar kimi fəaliyyət göstərmələri bizi çox qürurlandırır. Qadınların belə tədbirlərdə cəsarətlə öz fikirlərini bölüşməsi, gələcək perspektivlə bağlı düşüncələri gördüyümüz işlərin heç də əbəs olmadığını sübut edir. Bütün bunlar ölkəmizdə aparılan dövlət qadın siyasətinin bariz nümunəsi və nəticəsidir", - deyə o qeyd edib.

## İlin əvvəlindən 325 min tondan çox meyvə-tərəvəz ixrac olunub

Yarım ildə ölkədən 325 min 60 ton meyvə-tərəvəz ixrac edilib.

Bu barədə Dövlət Gömrük Komitəsi (DGK) məlumat yayıb.

Hesabat dövründə ixrac edilən meyvə-tərəvəzin dəyəri isə 318 milyon 370 min ABŞ dolları olub.

Xatırladaq ki, ötən ilin 6 ayında Azərbaycandan 276 milyon 701 min dollarlıq 299 min 677 ton meyvə-tərəvəz ixrac edilmişdi.

## Azərbaycana 6 ayda 18,7 min avtomobil gətirilib

Bu ilin yanvar-iyun aylarında Azərbaycana idxal edilən avtomobillərin sayı 18 min 740 olub.



Dövlət Gömrük Komitəsinin məlumatına görə, ölkəyə gətirilən avtomobillərin 101-i sürücü daxil olmaqla 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş motorlu nəqliyyat vasitəsi, 16 min 965-i əsasən adamların daşınması üçün nəzərdə tutulmuş minik avtomobili və digər motorlu nəqliyyat vasitələri, 1593-ü yük daşımaq üçün motorlu nəqliyyat vasitəsi, 81-i isə xüsusi təyinatlı motorlu nəqliyyat vasitəsidir.






# DÜNYA






**İctimai rəy**



## Donald Trampın rəqibi varmı?

ABŞ Prezidenti Donald Trampın 2016-cı ildə andiçmə mərasimi anından bəri reytinqi maksimal göstəriciyə çatmışdır. Buna ABC teleşirkətinin və "Washington Post" qəzetinin sifarişi ilə "Langer Research Associates" sosioloji xidmətinin keçirdiyi ictimai rəy sorğusunun nəticələri dəlalət edir.

Bildirilir ki, ABŞ Prezidentinin reytinqinin bu cür yüksəlişi onun administrasiyasının həyata keçirdiyi uğurlu iqtisadi siyasətlə əlaqədardır.

Sorğunun nəticələrindən məlum olur ki, Trampın dövlət başçısı vəzifəsində fəaliyyətini respondentlərin 44 faizi bəyənir. Tədqiqat iştirakçılarının 53 faizi isə əks fikirdədirlər. Təxminən 3 faiz heç bir cavab verməmişdir.

Bundan əvvəl ABC ilə "Washington Post"un keçirdiyi bütün sorğularda Trampın fəaliyyətinə 42 faizdən çox respondent müsbət qiymət verməmişdir. Bu göstərici 2017-ci ilin aprelində qeydə alınmışdı. Həmin vaxt dövlət başçısının həyata keçirdiyi tədbirlər barədə 53 faiz mənfi rəy söyləmişdi.

Tədqiqatçıların qiymətləndirməsinə görə, Trampın populyarlığının artması respondentlərin əsasən onun iqtisadi sferadakı siyasətini uğurlu hesab etməsi ilə bağlıdır. Sorğu iştirakçılarının 51 faizi bu siyasəti bəyənir, 42 faizi isə narazılığını bildirir.

Eyni zamanda ABŞ Prezidentinin xarici siyasətini respondentlərin 40 faizi effektiv, 55 faizi isə qeyri-effektiv hesab edir.

Sorğuda iştirak edənlərin 37 faizi bu fikirdədir ki, ABŞ Konqresi Trampın impiçment proseduruna başlamalıdır. 59 faiz isə buna əks fikir söyləyir.

### Seçkilərdə perspektivlər

Sorğuda iştirak etmiş respondentlərə "prezident seçkiləri bu gün keçirilsəydi, onlar hansı namizədi dəstəkləyərdi" sualı da verilmişdir. Onlar Donald Tramp və Demokratlar Partiyasından prezidentliyə namizəd irəli sürülmək üçün hazırda ən çox şansa malik olan beş namizəddən biri arasında seçim etməli idilər. Bu beşliyə sabiq vitse-prezident Co Bayden, Vermont ştatında senator Berni Sanders, Saut-Bend (İndiana ştatı) şəhərinin meri Pit Buttecac, Massaçusetsdən senator Elizabet Uorren və Kaliforniyadan olan senator Kamala Harris daxildirlər.

Sorğunun nəticələrinə əsasən, Tramp adıçəkilən beş siyasətçinin hər birinə məğlub olardı. Demokratların namizədi Bayden olsaydı, o, seçicilərin 55 faiz səsini, Tramp isə 41 faiz səsini qazanardı. Sanders Trampa 51 faiz səslə qalib gələrdi. Respublikaçının nəticəsi isə 45 faiz olardı. Uorren Tramp üzərində 51 faiz və 44 faiz səs nisbəti ilə qələbə əldə edərdi. Harris və Buttecac üçün isə nəticələr müvafiq olaraq 51 faiz - 43 faiz və 48 faiz - 44 faiz demokratların xeyrinə olardı.

ABŞ-da 59-cu prezident seçkiləri 2020-ci ilin noyabrında keçiriləcək. Növbəti prezident kampaniyası zamanı partiya fəallarının ilk iclasları gələn il fevralın əvvəlində Ayova və Nyu-Hempşir ştatlarında keçiriləcək. Həmin seçkilərdə demokratların və respublikaçıların milli qurultaylarına nümayəndələr seçiləcək.

Demokratlar Partiyasının milli qurultayı gələn il iyulun 13-dən 16-dək Viskonsin ştatının Miluoki şəhərində baş tutacaq. Orada prezidentliyə namizəd irəli sürüləcək.

Respublikaçılar isə öz qurultaylarını 2020-ci il avqustun 24-dən 27-dək Şimali Karolina ştatının Şarlott şəhərində keçirəcək.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***

**Haqqı olmayanlar**

# Sülhü savaşa qurban verənlər

## Ermənistanın BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilmək cəhdi canavarın quzu cildinə girmək istəyinə bənzəyir

İşğalçı Ermənistanda iqtidarla müxalifət arasında ziddiyyətlər dərinləşir desək, düz olmaz, çatlar və dərinləşmələr çoxdan baş verib. Artıq münasibətlər uçuruma dirənib. Bu isə o deməkdir ki, münasibətlər xaos halına çatıb, ağız deyəni qulaq eşitmir, beyin isə dərk etmək gücündə deyil.





Ermənistanda hakimiyyət dəyişmələrini ümidlə müşahidə edənlər də artıq başa düşürlər ki, son 30 ilin siyasi elitası erməni xalqından daha çox erməni diasporunun çaldığı havaya züy tutur. Ermənistana gələn yardımlar onların əlindən keçir. Siyasi etiket pul kisəsinə baş əyib xaç çəkməyi tələb edir.

Erməni diasporu üçün erməni xalqının sülhdə yaşamasından daha çox Qafqazda münaqişələrin daim közərməsi, bütün qonşu ölkələr arasında münaqişələrin dərinləşməsi lazımdır.

Xocalı soyqırımının təşkilatçılarından olan, dinc əhaliyə divan tutan və adı hərbi cinayətlərdə hallanan Serj Sarkisyanın iç üzü onda açıldı ki, o, azərbaycanlılara qarşı etdikləri cinayətlər qədər də öz xalqına divan tutub. Ölkədən qaçıb gedən ermənilərin sayı Ermənistandan və işğal altındakı Azərbaycan ərazilərindən qovulan azərbaycanlılardan heç də az deyil. Sarkisyanın zamanında baş verən əsgər ölümləri, korrupsiyanın ərşə çıxması və hətta hərbçilərin belə ağlasığmaz korrupsionerlərə çevrilməsi ermənilərə sübut etdi ki, Serj kimi liderdən düşmən daha yaxşıdır.

"Məxməri inqilab" nəticəsində Sarkisyan hakimiyyəti başında beysbol kepkası, kürəyində xurcun, dilində bol vədlərlə İrəvana girən Paşinyana ötürməyə məcbur oldu. Paşinyanı ermənilər az qala əfsanəvi xilaskar kimi qarşıladılar. İnsan çətinə düşəndə kiməsə inanmaq istəyir. Ermənilər də fikirləşdilər ki, Qərbdən gələn demokratik imicli birisi nə olursa olsun, köhnələrdən pis olmayacaq.

Paşinyanın şabaş kimi sağa-sola səpələdiyi bəyanatlar, verdiyi vədlər elə təsəvvür yaradırdı ki, o həqiqətən də xalqa yaxındır, varisləri qədər qəddar deyil, verdiyi vədlərə sahib çıxacaq, ölkəni sülhə kökləyəcək. Amma hakimiyyətə gəldiyi gündən üzə çıxdı ki, o nə qədər kükrəsə də, erməni diasporunun buyruq quludur, sələfləri kimi uzaqdan idarə olunur, əsas tapşırığı da Rusiyaya bağlı siyasiləri və biznesmenləri dənləmək, şimal qonşusunun dayaqlarını ləngərlədib müvazinətdən çıxarmaqdır.

Baş nazirin ölkəyə investisiyaların çay kimi axacağı, bütün sahələrdə intibahın baş verəcəyi ilə bağlı vədləri söz olaraq qaldı. O, demokrat kimi hakimiyyətə gəlsə də, oğlunu təmtəraqla Qarabağa, işğal altındakı ərazilərə savaşa yola saldı və Sarkisyandan da betər, demokratik lider əxlaqı ilə uzlaşmayan bəyanatlarla beynəlxalq hüquq normalarına məhəl qoymadan Azərbaycan ərazilərini "özəlləşdirməyə" cəhd etdi.

Zaman keçdikcə onun populyar şüarları əvvəlki sehrini itirib dəbdən düşdü. Yerinə yetirmədiyi vədlər onu xalqın gözündən salır, tənqid hədəfinə çevirir. İrəvanda faşizmi təbliğ etməklə, nasist şüarları ilə kütlələri xofda saxlamaq təəssüf ki, hələ də dəbdədir. Siyasi liderlərin ölkəni idarə etmək üçün başqa alətləri yox dərəcəsindədir. Rəsmi mətbuatın "zəncir"i Paşinyanın komandasının əlindədir və onu istədikləri hədəfə "qısqırdır", istədiklərinə də "quyruq bulamağa" məcbur edir. Paşinyanın rəsmi mediası bir yandan emal sənayesi və yüksək texnoloji məhsulların ixracının artmasına dair yalan bəyanatlar tirajlayır, bir yandan da demokrat kəlağayısından yaşmaq vurub faşizmin əsarətində inləyən ermənilərə özlərini azadlıq carçısı kimi təqdim edir. Eyni zamanda rəsmi mediada Azərbaycanın iqtisadi uğurlarına kölgə salmağa cəhdlər olunur, qeyri-obyektiv yazılar baş alıb gedir. İş o yerə çatıb ki, belə ucuz təbliğat elə erməni mətbuatının özündə də atəşə tutulur.

Erməni jurnalisti Ovik Karapetyan yazır ki, hökumətin nəzarətində olan medianın Azərbaycanla bağlı yazdıqları həqiqətə uyğun deyil və real vəziyyəti əks etdirmir. Azərbaycanda problemli kreditlərlə bağlı verilən fərman, əhalinin gəlirlərinin artırılmasına xidmət edən sosial paketlər, minimum əməkhaqqının bir ildə iki dəfə artırılması bütünlükdə birbaşa və ya dolayısı ilə bütün insanlara təsir edir. Bu da onların dövlətə olan güvənini möhkəmlədir. Erməni jurnalisti soruşur ki, niyə bizdə bunlar yoxdur? Niyə bizdə də vətəndaş dövlətin onun yanında olduğunu hiss etmir? Ona görə də ölkəni tərk edənlərin sayı durmadan artır, qalanlar da hər şeydən narazıdır. Hökumətin isə hələlik bunları fikirləşməyə vaxtı yoxdur.

Erməni politoloq Armen Badalyan etiraf edir ki, "məxməri inqilab" Ermənistanda kriminal oliqarxların kənarlaşdırılması və bir adamın hakimiyyətinin bərqərar olması ilə nəticələnib. İndisə yüksək vəzifələrə Paşinyanın yaxın dairəsi yerləşdirilir.

Bir sözlə, hələ də erməni milli nasist ideologiyasının banisi faşist Njdenin abidəsinə hamının baş əydiyi ölkədə siyasi rəhbərliklə rejimdən əziyyət çəkən sadə insanların yolları haçalanır. İnsan haqlarının kütləvi surətdə pozulması, günahsız adamların həbs edilməsi adi haldır. Ölkə daxilində vətəndaşlarının haqlarını pozan, qonşuları ilə müharibə şəraitində yaşayan və hamıya ərazi iddiaları ilə dirənən bugünkü Ermənistanın təmsilçisi BMT-nin İnsan Hüquqları Şurasında çıxış edir, dünyaya demokratiya dərsləri verməyə cəhd edir. Artıq aylardır ki, Ermənistan BMT-nin İnsan Hüquqları Şurasına üzv olmaq üçün dəridən-qabıqdan çıxır...

Erməni siyasi elitası etiraf etmək istəmir ki, erməni xalqı faşizmin əsarətindədir, onlar başqa ölkənin ərazilərini zəbt edən işğalçılardır. Elə düşünürlər ki, beynəlxalq aləmdə siyasi sırtıqlıq diplomatiyanın yeni bir növü kimi uğur gətirə bilər. Siz deyin, Ermənistanın monoetnik dövlətə çevrilməsinin, bütün digər xalqların müxtəlif yollarla sıxışdırılıb ölkədən çıxarılmasının, işğal edilmiş Azərbaycan ərazilərində qondarma hərbi rejimin yaradılmasının, Xocalı soyqırımının törədilməsinin demokratik dəyərlərlə hansısa bir əlaqəsi varmı? Bu qədər saysız cinayətləri törədən dövlətin BMT-nin İnsan Hüquqları Şurasına üzvlüyünü irəli sürməyə haqqı varmı? Təbii ki, yoxdur.

Amma cari ilin payızında Ermənistan BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilmək üçün əlindən gələni edəcək. Qoy, BMT-yə üzv olan dövlətlər fikirləşsinlər və cavab versinlər ki, Ermənistanın bu quruma seçilməsinə yol vermək olarmı? Dünyanın bütün demokratik ölkələri, müxtəlif ranqlı və çaplı beynəlxalq qurumlar əllərindən gələni etməlidirlər ki, İrəvan demokratiyadan danışanda dünyada sülhə və sabitliyə vurduğu zərbələri də etiraf etsin.

Böyük güclər, superdövlətlər anlamalıdırlar ki, Ermənistanda insan haqlarının kobud şəkildə pozulması, zorakılıq, seçki prosesinin saxtalaşdırılması və işğallar, Xocalı soyqırımı və digər etnik təmizləmələr bu ölkənin bütün demokratik qurumlara gedən yollarını bağlayır. Müasir dünya düzənində işğalçı ölkəni qalib kimi qarşılamaq bəşəriyyətin sülhə verdiyi dəyərlərə xəyanətdir.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

**Təbii kataklizm**

## Pakistan sahilləri yaxınlığında ada yoxa çıxdı



2013-cü ildə Ərəbistan dənizində Pakistanın Qvadara şəhəri yaxınlığında yaranmış Zəlzələ adasını artıq peykdən çəkilmiş şəkillərdə görmək mümkün deyil. Ada ölkənin cənubunda Belucistan və Sind əyalətində baş vermiş 7,7 bal gücündə zəlzələdən sonrakı vulkan püskürməsi nəticəsində formalaşmışdı. Onun hündürlüyü 20 metr, eni 90 metr, uzunluğu 40 metrdir.

Pakistanın Milli Okeanoqrafiya İnstitutu (NIO) adanın yoxa çıxması faktını təsdiq etmişdir. Bununla bağlı NIO-nun keçmiş direktoru Asif İnam demişdir: "Bu sahillərdə palçıq adalarının tarixi uzaq keçmişə gedir. Məsələn, 1945-ci ildə Məkranda baş vermiş zəlzələ nəticəsində dörd palçıq adası yaranmışdı. Zəlzələ adası da həmin struktura malik idi. Ərəbistan dənizindəki bu adacıqlar dəniz dibinin altında mövcud olan metan qazı hesabına formalaşır".

**Sanksiyalar**

## Türkiyə Aralıq dənizində kəşfiyyat işlərini davam etdirəcək




Avropa İttifaqı (Aİ) "Kiprin xüsusi iqtisadi zonasında qazma işlərinin aparılmasına görə" Türkiyəyə qarşı sanksiyalar tətbiq edib. Bu barədə TASS agentliyi xəbər verir.

Məlumata görə, Aİ-yə üzv ölkələrin Xarici İşlər nazirlərinin birgə qəbul etdikləri bəyanatda deyilir: "Türkiyənin qanunsuz qazma işlərini davam etdirməsi və yeni fəaliyyəti fonunda Şura Hərtərəfli Hava Nəqliyyatı haqqında sazişin imzalanması üzrə danışıqların dayandırılması, habelə Assosiasiya Şurasının və Aİ ilə Türkiyə arasında yüksək səviyyəli dialoq üzrə gələcək iclasın keçirilməməsi barədə qərar qəbul edib".

Bundan əlavə, Aİ Ankaraya qarşı məhdudlaşdırıcı tədbirlər də tətbiq etmişdir. Belə ki, Şura Avropa Komissiyasının 2020-ci il üçün Türkiyəyə maliyyə dəstəyinin azaldılması barədə təklifini təqdir edir, habelə Avropa İnvestisiya Bankına Türkiyədəki kredit fəaliyyətini yenidən nəzərdən keçirməyə dəvət edir".

Aİ-nin sanksiyalarına baxmayaraq, Türkiyə Aralıq dənizinin şərqində kəşfiyyat işlərini dayandırmayacaq. Bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatına istinadən "Anadolu" agentliyi xəbər verir.

Bəyanatda qeyd olunur ki, Aİ-nin sanksiyaları bir daha qurum tərəfindən Türkiyəyə qarşı ikili standartlar yürüdüldüyünü nümayiş etdirir.

**Kiberidman**

## Çində milli prioritetə çevrilən sahə

Çin Xalq Respublikasının Əmək Ehtiyatları və Sosial Təminat Nazirliyinin hesabatında bildirilir ki, kiberidman sahəsində çalışan işçilərin 86 faizi ölkədə üçqat əməkhaqqı ala bilir. Özü də bu sektorda iş yerlərinin cəmi 15 faizi tutulmuşdur. Bu isə yaxın 5 il ərzində təxminən iki milyon əməkdaş üçün tələbat yaradır.



Beynəlxalq kiberidmanın artan rolunu qeyd edən nazirlik 13 yeni ixtisası milli məlumat kitabına daxil etmişdir. Bunların arasında "kiberidmançı" və "kiberidman meneceri" ixtisasları da var.

Beynəlxalq yarışların sayəsində kiberidman böyük, sürətlə inkişaf edən sənayeyə çevrilmişdir.

2019-cu ildə dünyada kiberidman tamaşaçılarının ümumi sayı 454 milyona çatmışdır. Bu, ötən illə müqayisədə 15 faiz çoxdur. Gözlənilir ki, Çində kiberidman həvəskarlarının sayı 75 milyona çatacaq.

Daha çox adamın kiberidman sənayesində işləmək istəməsinə baxmayaraq hələ də mütəxəssis çatışmazlığı mövcuddur. Sənayenin irəli sürdüyü tələbatı təmin etmək üçün ölkədəki bir çox kolleclər müvafiq tədris kursları açmışdır. Həmin kurslarda yayım apara bilən təşkilatçılar, texniki işçilər və digər mütəxəssislər hazırlanır.

Kiberidmanda təhsillə yanaşı, Çin hökuməti həm də ictimaiyyətin bu sənaye barədə biliyini artırmaq istəyir. Dövlət dəstəyi sayəsində adamlar daha fəal şəkildə bu sahəyə gələcək. Bu isə öz növbəsində milli və qlobal səviyyədə sənayenin inkişafına kömək edəcək.

Hazırda Çində 5 mindən çox kiberidman komandası fəaliyyət göstərir.

Bundan əlavə, kiçik və orta kiberidman tədbirlərində iştirak edən çoxsaylı yarıpeşəkar və həvəskar oyunçular var. Ekspertlərin dediyinə görə, ölkədə kiberidmançıların ümumi sayı 500 min nəfərdən çoxdur.

Kiberidman komandaları müxtəlif səviyyəli oyunçulardan, məşqçilərdən və analitiklərdən ibarətdir. Əməkdaşlar turnirlərdə iştirak, oyun kontentinin tədqiqatı, analiz, oyunların hazırlanması və testdən keçirilməsi ilə məşğuldurlar.

Kiberidmanda oyunçuların əksəriyyəti kollec, yaxud orta məktəb şagirdləridir. Onların əməkhaqqı orta göstəricidən yüksəkdir. Ən yaxşı idmançılar ildə bir milyon yuan və daha çox qazana bilir.

Ötən il kiberidman İndoneziyanın paytaxtı Cakartada keçirilmiş Asiya oyunlarında rəsmən tanınmışdır.

Ölkənin milli siyasət səviyyəsinə uyğun olaraq idmana dəstək də gücləndirilir. Şandunda, Çjetszyanda, Xunanda, Lyaonində, Anxoyda və digər vilayətlərdə də kiberidman mərkəzlərinin tikintisi və inkişafı bu sahədə məşğulluğun artmasına gətirib çıxarmışdır.

Kiberidman istedadlarının axtarışını və hazırlığını sürətləndirmək üçün Təhsil Nazirliyi kiberidmanı və oyunları aspiranturaya və peşəkar proqrama daxil etmək barədə qərar qəbul etmişdir. Hazırda kolleclərdə və universitetlərdə kiberidman ixtisasları üzrə mütəxəssislər hazırlanır.

Universitetlər, o cümlədən Çin Rabitə Universiteti, Sıçuan Kino və Televiziya Kolleci kiberidmanla əlaqəli ixtisaslar təklif edir. Bir çox digər peşə məktəbləri də kiberidmanın idarəçiliyi ilə əlaqəli proqramlar təqdim edir.

Ötən il Çində 500-dən çox kiberidman yarışı keçirilmişdir.

Ölkə ən nüfuzlu kiberidman bazarlarından birinə çevrilmişdir. Bu sahənin oyunçularına, analitiklərinə və məşqçilərinə tələbat heç vaxt indikindən yüksək olmamışdır.

Gözlənilir ki, 2020-ci il üçün ölkənin kiberidman sahəsinin ümumi istehsalat həcmi 21,1 milyard yuan təşkil edəcək.

**Etimadı doğrultmayanlar**

## Rumıniyanın Daxili və Xarici İşlər nazirləri vəzifələrindən kənarlaşdırıldı



Dünən Rumıniyanın Baş Naziri Viorika Dençile Xarici İşlər naziri Teodor Meleşkanu və Daxili İşlər naziri Karmen Danı vəzifələrindən kənarlaşdırmışlar. Hökumət başçısının dediyinə görə, hər iki siyasətçi əhalinin gözündə "pis imicə" malik idi. Bu barədə yerli KİV xəbər verir.

Karmen Dan Dençile Sosial Demokratlar Partiyasını, Teodor Meleşkanu isə "Liberallar və Demokratlar Alyansı"nı (ALDE) təmsil edirlər. Məlumata görə, XİN-ə ALDE nümayəndəsi Ramona Manesku, DİN-ə isə Sosial Demokratlar Partiyasından Senator Nikolae Moqa başçı təyin olunacaq.

**Demokratiya**

## Tailandda hərbi vəziyyətə son qoyuldu

Tailandın Baş Naziri general Prayut Çan-Oça hərbi hökumətin başçısı vəzifəsindən istefa vermişdir. O, 2014-cü ildə dövlət çevrilişindən sonra Nazirlər Kabinetinə başçılıq edirdi. Hökumətə fövqəladə səlahiyyətlər verilmişdi. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Çan-Oçanın dediyinə görə, "artıq fövqəladə səlahiyyətlərə ehtiyac qalmamışdır. İndi Tailand tamamilə demokratik ölkədir. Bundan sonra problemlər xüsusi səlahiyyətlər tətbiq olunmadan, demokratik prosedurların köməyi ilə həllini tapacaq".

**Miqrantlar**

## ABŞ miqrantlar üçün qaydaları sərtləşdirir




ABŞ Prezidenti administrasiyası Meksika ilə sərhəddə sığınacaq istəyənlər üçün qaydaları sərtləşdirir. Yeni qanuna əsasən, üçüncü ölkədən ABŞ ərazisinə keçən şəxslər sonradan sığınacaq almaq üçün müraciət edə bilməyəcəklər. Bu barədə Daxili Təhlükəsizlik və Ədliyyə nazirliklərindən məlumat vermişlər. Bildirilir ki, yeni qaydalar Mərkəzi Amerika ölkələrindən gələn və sığınacaq istəyən şəxslərin sayını kəskin şəkildə azaltmalıdır.

Fərmana görə, ABŞ-a gedərkən tranzit ölkədə müdafiə üçün rəsmən müraciət etməyən şəxslər Amerikada sığınacaq almaq hüququndan məhrum olunur. İstisna ancaq işgəncələr, təqib, insan alveri qurbanı olmuş, yaxud digər ölkədə sığınacaqla bağlı müraciəti rədd edilmiş şəxslərə tətbiq ediləcək.




# Avropa Gənclər Olimpiya Festivalında Azərbaycanı 122 idmançı təmsil edəcək





İyulun 16-da Azərbaycan Milli Olimpiya Komitəsində (MOK) XV Avropa Gənclər Olimpiya Festivalında iştirak edəcək idmançılar, məşqçilər və idman federasiyalarının nümayəndələri ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, festivalda iştirak edəcək Azərbaycan nümayəndə heyətinin rəhbəri və MOK-un İdman idarəsinin rəisi Həsənağa Rzayev, komitənin Marketinq şöbəsinin rəisi Mehman Kərimov iştirak ediblər.

Tədbirdə çıxış edən Çingiz Hüseynzadə Azərbaycanın bir neçə gündən sonra daha bir mötəbər idman turnirinə evsahibliyi edəcəyini vurğulayıb. Komandamızın festivalda yaxşı nəticələr qazanacağına ümidvar olduğunu vurğulayan vitse-prezident deyib: "Əminik ki, gənc idmançılarımız Avropa Gənclər Olimpiya Festivalında uğurla çıxış edəcəklər. Bu festivalın 14-18 yaşlı gənclər üçün keçirildiyini nəzərə alaraq Beynəlxalq və Avropa Olimpiya komitələri üç layihə həyata keçirir. Bunlardan biri - "Olimpiya mədəniyyəti və təhsil" proqramı Azərbaycan Milli Olimpiya Komitəsi, Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə ölkəmizdə uğurla reallaşdırılır".

MOK-un idman şöbəsinin müdiri və festivalda Azərbaycan nümayəndə heyətinin rəhbəri Həsənağa Rzayev idmançıların bu mötəbər yarışa hazırlığı barədə məlumat verib.

Qeyd olunub ki, festivalda 48 ölkədən 3900 atlet idmanın on növü üzrə mübarizə aparacaq. Azərbaycanı "Bakı 2019"da 122 idmançı təmsil edəcək. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunacaq. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennis 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizə aparacaq. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda isə ümumilikdə 30 oyunçu yer alıb.

Avropa Gənclər Yay Olimpiya Festivalında atletlər idmanın 10 növü - gimnastika, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş üzrə yarışlarda qüvvələrini sınayacaqlar. Festival zamanı 12 idman obyektində 2500-dən çox könüllü fəaliyyət göstərəcək. AZƏRTAC "EYOF 2019" XV Avropa Gənclər Olimpiya Festivalının rəsmi media tərəfdaşıdır.

# Avropa yenidən Bakıda toplanır

*Əvvəli 1-ci səh.*







Son dörd ildə bir-birini əvəzləyən idman yarışları Bakının daha böyükmiqyaslı yarışlara evsahibliyi etmək imkanlarını artırıb. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında isə məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır.

İndiyədək ölkəmiz dünya və qitə çempionatları da daxil olmaqla çoxsaylı idman tədbirləri qəbul edib. Dörd il əvvəl isə Odlar yurdu Avropanın idman tarixinə şərəfli səhifə yazıb: Azərbaycan "köhnə qitə"nin ilk olimpiadasına - I Avropa Oyunlarına evsahibliyi etməklə nəinki təşkilati cəhətdən, həm də idman uğuru baxımından misli görünməmiş qələbə qazanıb. Belə ki, təşkilati işlərin gedişində heç bir problem ortaya çıxmayıb, qrafikdən geriqalma halları olmayıb.

Növbəti Avropa Oyunlarının standartlarını məhz Azərbaycan müəyyənləşdirdi. Digər tərəfdən, Azərbaycan atletləri oyunlarda tarixi qələbə ilə yadda qaldılar. 50 ölkədən 10 min idmançının qatıldığı idman tədbirində təmsilçilərimiz 56 medal (21 qızıl, 15 gümüş, 20 bürünc) qazanaraq Rusiya atletlərindən sonra ikinci yeri tutdular. Azərbaycan idmançılarının Avropa qitəsinin ən güclü atletləri ilə yarışdıqları nəzərə alınsa, təmsilçilərimizin nə qədər böyük zəfərə imza atdıqları təsəvvür olunar.

İki il öncə isə islam dünyasının idman həyatı üçün əlamətdar olan "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları çox böyük uğurla yekunlaşdı. 54 ölkədən 3000-dən çox idmançının iştirak etdiyi yarışlarda Azərbaycan atletləri 75-i qızıl, 50-si gümüş, 37-si bürünc olmaqla 162 medal qazanaraq birinci yeri tutdular. İslam dünyasının ən nüfuzlu idman yarışında iştirak edən atletlər, qonaqlar Azərbaycanla tanış oldular, ölkəmizin uğurlu inkişaf modelini növbəti dəfə gördülər.

İndi isə sıra XV Avropa Gənclər Yay Olimpiya Festivalındadır. Xatırladaq ki, Avropa Gənclər Festivalı ideyası yeniyetmə və gənclərə Olimpiya hərəkatını, dəyərlərini və ideallarını öyrətmək, təbliğ etmək üçün Jak Roq tərəfindən 1990-cı ildə irəli sürülmüşdür. 14-18 yaşlılar arasında avropalı idmançıları bir araya gətirən yarış ilk dəfə 1991-ci ildə Belçikanın paytaxtı Brüsseldə keçirilib. İki ildə bir dəfə (cüt deyil, tək illərdə) - qışda və yayda keçirilən Avropa Gənclər Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi ilə Avropa Olimpiya Komitəsi adından təşkil olunur. Festival digər qitələrdə keçirilən Asiya Gənclər Oyunları və ya Panamerika Gənclər Oyunları kimi ənənəni Avropada davam etdirmək imkanını yaradır. Festivala evsahibliyi edən ölkə bütün yarışlarda əvvəlcədən təsnifat mərhələsi olmadan iştirak etmək hüququ qazanır.

Bu arada onu da qeyd edək ki, ölkəmiz XV Avropa Gənclər Yay Olimpiya Festivalında 122 idmançı ilə təmsil olunacaq. Artıq bir sıra idman növlərində yarışacaq atletlərin adlarına da aydınlıq gəlib. Ölkəmiz atletika yarışlarında 18 idmançı ilə təmsil olunacaq. Azərbaycan atletləri qaçışın altı (100 m, 200 m, 400 m, 800 m, 100 m sədlərlə qaçış, və estafet), tullanmanın üç (üçtəkanla, uzunluğa və hündürlüyə) növü, eləcə də lövhəatma və nüvəitələmə yarışlarında mübarizə aparacaqlar.

Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək qaçış üzrə kişilərin yarışlarında Aleksey Ələkbərov (100 m, estafet), Əli Abdıyev (200 m, estafet), Teymur Salahzadə (400 m, estafet), Vahid Kərimov (800 m) və Əlhəm Nağıyev (estafet) starta çıxacaqlar. Qızlardan isə Ayana Seyuşeva (100 m sədlərlə qaçış), Fəxriyyə Tağızadə (100 m, estafet), Lamiyə Vəliyeva (200 m, estafet), Bibixanım Qəmbərova, Sabrina Zralova (hər ikisi estafet), Nika Məmmədova (400 m, estafet) və Günel Manafova (800 m) məharətlərini sınayacaqlar.

Tullanma növlərində oğlanlardan Çingiz İsrafilov (üçtəkanla tullanma), Aydın Bədəlov (hündürlüyə tullanma), Məmmədağa Məmmədov (uzunluğa tullanma) çıxış edəcəklər. Lövhəatma yarışında ölkəmizi Yusif Nəzərov təmsil edəcək.

Qızlar arasında keçiriləcək tullanma yarışlarında Sabrina Zralova (uzunluğa və üçtəkanla tullanma), Ləman Hüseynova (hündürlüyə tullanma), nüvəitələmədə isə Günel Hüseynova medallar uğrunda mübarizə aparacaqlar. Cüdo yarışlarında isə Azərbaycanı 12 idmançı - 8 oğlan və 4 qız təmsil edəcək.

Şübhə yoxdur ki, idmançılarımız XV Avropa Gənclər Yay Olimpiya Festivalında Azərbaycana yeni-yeni uğurlar qazandıracaqlar. Çünki dövlət başçısı İlham Əliyevin ölkədə bədən tərbiyəsi və idmanın inkişafı sahəsində gördüyü genişmiqyaslı tədbirlər Azərbaycanı dünyaya idman ənənələri olan ölkə kimi də tanıtdırıb. Bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsi uğurlarımızı artırmaqdadır.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


bakcell

## abunəçilərinin nəzərinə

"Bakcell" MMC öz abunəçilərinin nəzərinə çatdırır ki, 30 iyul 2019-cu il tarixdən etibarən "Gündəlik 25MB" İnternet paketinin qiyməti 15 qəpik, "Gündəlik 50MB" İnternet paketinin qiyməti isə 25 qəpik təşkil edəcək.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti


## Polşa vətəndaşının adı arzuolunmaz şəxslər siyahısından çıxarılıb

Polşa Respublikasının vətəndaşı, həmin ölkənin Milli Olimpiya Komitəsinin vitse-prezidenti Tomaş Paremba Xarici İşlər Nazirliyinə məktubla müraciət edərək adının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının siyahısı"ndan çıxarılmasını xahiş edib.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, məktubda Tomaş Paremba Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə və suverenliyinə, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bildirib. O, işğal edilmiş ərazilərə sözügedən səfəri ilə heç bir halda ölkəmizin ərazi bütövlüyünü və suverenliyini şübhə altına almaq niyyətində olmadığını qeyd edib.

Onun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və adının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Peşəyönümü məsləhət xidmətlərinin satın alınması ilə əlaqədar

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 1500 (bir min beş yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.08.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **20.08.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.08.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 16.05.2019-cu il tarixli sayında elan edilmiş Sənaye və salon tipli kondisionerlərə profilaktiki baxış və texniki qulluq xidmətinin satın alınması prosedurunun qalibi "Klimat.Co" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "Klimat.Co" MMC arasında 93 984,00 manat (doxsan üç min doqquz yüz səksən dörd manat 00 qəpik) manat məbləğində 16 iyul 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti Peşə və kvalifikasiya standartlarının hazırlanması xidmətlərinin satın alınması ilə əlaqədar

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: Hər LOT üzrə 1500 (bir min beş yüz) manat**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti**
**VÖEN: 1300144711**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**Müxbir Hesabı: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**H/HESABI: AZ18CTRE00000000000004788202**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142340**
**Büdcə səviyyəsinin kodu - 7**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:
- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər (---).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **09.08.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **20.08.2019-cu il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **20.08.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən "Azərbaycan" qəzetinin 09.05.2019-cu il tarixli sayında elan edilmiş Avtonəqliyyat vasitələrinə texniki xidmət, eləcə də sürtkü materiallarının və ehtiyat hissələrinin dəyişdirilməsi xidmətlərinin satın alınması prosedurunun qalibi "ŞƏRQ MOTORS" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "ŞƏRQ MOTORS" MMC arasında 219 238.10 (İki yüz on doqquz min iki yüz otuz səkkiz manat 10 qəpik) manat məbləğində 12 iyul 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, "Bakı Kristal Zalı" MMC mövcud olan havalandırma sisteminin tam avtomatlaşdırılmasının satın alınması üzrə təkliflər sorğusu elan edir

İddiaçılar təkliflər sorğusunun predmetinə dair hazırlanmış təkliflər sorğusu üsulu ilə keçirilən müsabiqəyə dəvət formasını "Bakı Kristal Zalı" MMC-də əldə edə bilərlər.

Təkliflər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır və bağlı zərfdə 18 iyul 2019-cu il saat 15:00-a qədər qəbul olunur.

Zərflərin açılma tarixi 19 iyul saat 10:00.

**Ünvan: Bakı şəhəri, Səbail rayonu, Bayıl massivi, Dövlət Bayrağı Meydanı.**
**Ətraflı məlumat almaq üçün əlaqələndirici şəxs Teymur Hüseynova müraciət etmək olar.**
**Telefon: (012) 404-31-52 (daxili 210)**
**e-mail: info@crystalhall.az**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları Güntəkin və Tofiq Nəcəflilərə əzizləri

**AYTƏKİN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi iş yoldaşları Eynulla Lazımova atası

**MƏMMƏD LAZIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin aparat rəhbəri Cabbar Musayevə anası

**NƏRGİZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Energetika Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin əməkdaşı Eldar Şiriyevə atası

**ATAXAN ŞİRİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8903
Sifariş 2362
Qiyməti 40 qəpik